QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 191 (5663) **10 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır"

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*



Səh 2


**Güclü xalq, güclü dövlət, güclü LİDER vəhdəti**



5

**"Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurlu inkişaf edir"**



4

**Ziyası ilə işıq saçan görkəmli alim**



6

**Azərbaycan-Rusiya münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolu var**



4

**Sülh prosesinə zərbə vuran "sülhməramlılar"**



9

**Eldar İbrahimov: "Azərbaycanın ədalətli mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır"**



7

14

**Xəyanətkarlar bu dəfə Praqada yığışdı**



7

**Bəhruz Quliyev: "Xalq hər zaman İlham Əliyevə və yürüdülən siyasətin məntiqi davamına səs verib"**



16

**Həbib Nurməhəmmədov reytinqdə 2-ci pilləyə yüksəlib**



# “Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır”

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*



> “Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik”

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb. Prezident İlham Əliyev giriş nitqində bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olub. Dövlət başçısı qeyd edib ki, ilin əvvəlindən qarşıya qoyulan bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin edib və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb:

“Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Bu istiqamətdə bir çox addımlar atılır, o cümlədən xarici siyasətlə bağlı addımlar. Deyə bilərəm ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu, onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal və dəyərli üzvüdür və bütün beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə biz İslam həmrəyliyini göstəririk və bunu təbliğ edirik. Təsadüfi deyil ki, keçən il bizdə “İslam Həmrəyliyi İli” elan olunmuşdur. Azərbaycanda, İslam aləmində birliyin, həmrəyliyin möhkəmləndirilməsi işində bizim fəaliyyətimiz müsəlman dünyasında çox yüksək qiymətləndirilir. İslam Əməkdaşlıq Təşkilatı bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Biz bu istiqamətdə səylərimizi davam etdiririk və etdirəcəyik. Təsadüfi deyil ki, bu il Azərbaycanın ikinci şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı adına layiq görüldü. Biz bunu bütün müsəlman aləminin bizə olan hörmətinin təzahürü kimi qəbul edirik, qiymətləndiririk. Eyni zamanda, əlbəttə ki, bu qərar bizim İslam aləmində oynadığımız müsbət rol ilə bağlıdır və biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik. İslam aləmində həmrəyliyin, birliyin möhkəmlənməsi üçün səylərimizi davam etdirəcəyik, eyni zamanda, İslam dəyərlərini dünyaya çatdırmaq üçün bundan sonra da addımlar atılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda multikulturalizmlə bağlı bir çox tədbirlər keçirilmişdir və həm İslam aləmində, həm Avropada bizim bu səylərimiz yüksək qiymətləndirilir, bu səylərin gözəl nəticələri vardır.”

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı indiki danışıqlar mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır:

“Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir.



**Ardı Səh. 3**

# "Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır"

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*

Əvvəli Səh.2



Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnikanı, silahları almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərlə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Bu il Bakıda üçüncü müdafiə sənayesi sərgisi uğurla keçirilmişdir. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirmişlər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib."

> "Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır"

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Dövlət başçısı diqqətə çatdırıb ki, əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı:

"Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.

Eyni zamanda, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni, gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Bu, bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda, ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Bu, bizim bundan sonra da uğurlu inkişafımız üçün çox önəmli amildir.

Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək. Bu barədə bu gün danışılacaq ki, öz iqtisadi potensialımızdan maksimum istifadə edə bilək.

2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur. Bu ilin may ayında biz Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni, biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, Cənub Qaz Dəhlizinin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur.

Əlbəttə ki, ilin doqquz ayının yekunları haqqında danışarkən Ələt Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsi həyata keçirildi. Bundan sonra biz əlbəttə ki, öz tranzit imkanlarımızı artıracağıq. Bu gün biz nəinki Şərq-Qərb, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıyıq. Bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi artır. Mən bu rəqəmi səsləndirmişdim, bir daha demək istəyirəm ki, ilin əvvəlindən Şimal-Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi yüz dəfədən çox artmışdır. Bu, hələ başlanğıcdır. Biz indi tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün çox ciddi danışıqlar aparırıq. Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları var. Azərbaycan ərazisində bütün işləri biz özümüz gördük və başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim əsas məqsədimiz budur. Əlbəttə ki, tranzit ölkələrin siyasi çəkisi də, siyasi imkanları da artır. Regionda əməkdaşlığın inkişafı üçün o ölkələrin rolu artır. Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq.

Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik."

Ardı Səh. 4

# "Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır"

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*

Əvvəli Səh. 3

x x x

Daha sonra Vergilər naziri Mikayıl Cabbarov, Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov çıxış edərək, görülən işlər barədə danışıblar. Qeyd olunub ki, 2018-ci ilin ötən 9 ayı ölkəmizdə makroiqtisadi sabitliyin, iqtisadi artımın davam etməsi və maliyyə dayanıqlığının daha da güclənməsi ilə əlamətdar olub. Ölkə iqtisadiyyatı yüksək inkişaf dinamikasını saxlamağa müvəffəq olub, mürəkkəb xarici risklər və çağırışlar şəraitində yüksək dayanıqlılıq və sabitlik nümayiş etdirib. Ölkə iqtisadiyyatında müşahidə olunan müsbət trendlər fonunda cari ilin 9 ayında 5 milyard 298 milyon manat həcmində proqnoza qarşı 5 milyard 306 milyon manat vergi toplanıb, proqnoza 100,2 faiz əməl olunub. Ödənilən vergilərin 65,8 faizi qeyri-neft sektorunun payına düşür.

Eyni zamanda, görülən işlər nəticəsində ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında "İctimai Wi-Fi" istifadəyə verilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib.

Dünya İqtisadi Forumunun 2017-2018-ci il hesabatına əsasən Azərbaycan internet istifadəçilərin faizinə görə dünyanın 137 ölkəsi arasında 34-cü yerdədir. Ölkəmiz bu göstərici üzrə dünyanın orta göstəricisindən 1,7 dəfə, MDB ölkələrinin orta göstəricisindən isə 1,2 dəfə öndədir.

Dövlətimizin başçısı iclasda yekun nitqi söyləyib. Azərbaycan Prezidenti İlham Əliyev yekun nitqində qeyd edib ki, gələn ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaq. Bütün sosial layihələr icra ediləcək:

"Eyni zamanda, dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Əsas məsələ ondan ibarətdir ki, biz bu vəsaitdən səmərəli şəkildə istifadə edək, ölkə qarşısında duran əsas məsələlərin həllini təmin edək, prioritetləri düzgün seçək. Dövlət İnvestisiya Proqramımız iqtisadiyyatın real sektoruna xidmət göstərməlidir, eyni zamanda, bu günə qədər öz həllini tapmayan infrastruktur layihələrinin icrasına da istiqamətləndirilməlidir.

Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilməlidir. Bu istiqamətdə işlər gedir.

Xüsusilə bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var. "Azerspace-2" peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək. Onu da qeyd etməliyəm ki, peykin imkanlarının demək olar yarısı, bəlkə də yarıdan çoxu artıq satılıb. Bundan sonra qalan təqribən 40 faiz hələ ki, bölüşdürülməyib. Peykin xidmət potensialı, o da bölüşdürüləcək. Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır.

Eyni zamanda, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Deyə bilərəm ki, artıq 100-dən çox şəhərcik salınıb. Bu il əlamətdar hadisə baş verib, ilk dəfə olaraq özəl sektor məcburi köçkünlər üçün böyük şəhərcik salıb, Qobu qəsəbəsində mindən çox mənzil özəl sektor tərəfindən inşa edilib və köçkünlərə təqdim olunub. Mən bunu çox alqışlayıram. Hesab edirəm ki, bu proses Azərbaycanda vüsət almalıdır.

Gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır. Proqram demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir. Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin."

> "Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq"

# "Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurlu inkişaf edir"

*Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin müavinini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kenti qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.***



Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə bağlı göndərdiyi məktublarda Azərbaycan-ABŞ münasibətləri ilə əlaqədar ifadə etdiyi fikirlərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı təhlükəsizlik sahəsində əməkdaşlığa toxunuldu, ölkəmizin Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsi və ikitərəfli əsasda Əfqanıstan hökumətinə verdiyi dəstək yüksək qiymətləndirildi.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ABŞ-ın "Cənub Qaz Dəhlizi" layihəsinə verdiyi dəstək xüsusi qeyd olundu.

Söhbət zamanı, həmçinin qeyri-neft sektoru, o cümlədən ticarət, informasiya texnologiyaları, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.



## Azərbaycan-Rusiya münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolu var

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Türkiyə Respublikasının Antalya şəhərində Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısı çərçivəsində keçirilən görüşdə iki qonşu ölkənin parlamentləri arasında münasibətlərin dinamikası yüksək dəyərləndirilib. Tərəflər Azərbaycan və Rusiya parlamentləri arasında birgə komissiyaların yaradılması ilə bağlı səmərəli fikir mübadiləsi aparıblar. Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısında hər iki ölkənin ümumi maraqlarını əks etdirən mövqenin nümayiş etdirildiyi bildirilib.

Spikerlər arasında görüşlərin müntəzəm xarakterli olduğunu diqqətə çatdıran Dövlət Dumasının sədri Vyaçeslav Volodin qeyd edib ki, əlaqələrin daha da genişləndirilməsi üçün bütün imkanlardan istifadə olunur.

Azərbaycan-Rusiya münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolunu yüksək dəyərləndirən Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, keçirilən hər bir görüş faydalıdır və əhəmiyyətlidir.

# Güclü xalq, güclü dövlət, güclü LİDER vəhdəti



***Son illərin davamlı inkişafı sayəsində, Azərbaycan regionun lider dövlət səviyyəsinə yüksəlib. Bunun nəticəsidir ki, bölgədə Azərbaycanın fəal iştirakı olmadan hər hansı beynəlxalq layihəni reallaşdırmaq mümkün deyil. Ölkəmiz, eyni zamanda, müntəzəm olaraq, qlobal miqyasda yeni-yeni əməkdaşlıq platformaları ilə çıxış edir ki, bunun da sayəsində, respublikamızın beynəlxalq nüfuzu və təsir imkanları əhəmiyyətli dərəcədə artıb. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və son 15 ildə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi məqsədyönlü siyasət sayəsində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atılıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyasının inamla həyata keçirilməsi və yeni çalarlarla zənginləşdirilməsi respublikamızın müasir inkişaf səviyyəsini müəyyən edib.***

## XALQ-İQTİDAR BİRLİYİNİN MÖHTƏŞƏM QƏLƏBƏSİ

2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşdü. Azərbaycan vətəndaşları yenidən öz səslərini Cənab İlham Əliyevə verdilər. Seçicilərin böyük əksəriyyətinin səs çoxluğu ilə qalib gələn Cənab İlham Əliyev növbəti 5 il müddətinə Prezident seçildi. Demokratik bir şəraitdə, azad və şəffaf keçirilən prezident seçkiləri Azərbaycanda həyata keçirilən daxili və xarici siyasətin, xalq-iqtidar birliyini təntənəsi olaraq möhtəşəm qələbə ilə nəticələndi. Bu qələbə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin alternativi olmadığının bir daha təsdiqi idi. Xalq, birmənalı olaraq, Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini nümayiş etdirdi. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrildi. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss etməyə başladı. Çünki Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayandı.

## "ŞADAM Kİ, HEYDƏR ƏLİYEV SİYASƏTİ AZƏRBAYCANDA YAŞAYIR, DAVAM ETDİRİLİR, ZƏNGİNLƏŞİR VƏ ÖLKƏMİZ UĞURLA İNKİŞAF EDİR"

Prezident İlham Əliyev 2013-cü ilə keçirilən Andiçmə mərasimində "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!" -deyərək sonrakı illərdə andına sadiq olduğunu həyata keçirdiyi siyasəti ilə təsdiqlədi.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Bu, belə də oldu. Cənab Prezidentin "Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir" - deməsi çox böyük əsaslara söykənir. 2003-cü ildən bu günə qədər keçən dövr Azərbaycan sürətli inkişaf dövrünü yaşamış və dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. Bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi tanınır, dünyaya özünü demokratik ənənələrə sadiq, hüquqi və sosial dövlət kimi təqdim edir. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir. Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. "Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə, biz demək olar ki, Şərq-Qərb dəhlizini işə saldıq", - deyən dövlət başçısı bildirib ki, gələn ildən başlayaraq biz Bakı-Astara yolunun modernləşməsinə də başlamalıyıq: "Beləliklə, biz Şimal-Cənub Nəqliyyat Dəhlizini daha da sürətləndirəcəyik. Düzdür, indi dəmir yolu var, yüklər gedir, ancaq sürət aşağıdır. Sürəti artırmaq üçün bu istiqamətdə işlər görüləcək". Bu il neft-qaz sahəsində görülmüş işlər tarixi əhəmiyyətə malikdir. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisə oldu. Cənab Prezidentin vurğuladığı kimi, bunlar dünyada da çox böyük əks-səda yaradan layihələrdir. Enerji siyasətinə gəldikdə isə, Cənab Prezidentin qeyd etdiyi kimi, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır: "Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə, qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən "Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir".

## "...BİZİM SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI, ONUN PROBLEMLƏRİ, ONUN QAYĞILARI, ONUN RİFAHI DAYANIR"

Prezident İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi, ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində, Azərbaycan hər sahədə inkişaf edir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Ölkə əhalisinin ən həssas və zərif hissəsi olan qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə diqqət artır. Məcburi köçkünlər üçün yeni binalar tikilib, istifadəyə verilib və bu, davamlı olaraq, həyata keçirilir.

2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 52 min 500 ailənin və ya 265 mindən çox qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd təsərrüfatı sahələrinin inkişafında da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülür. Azərbaycan Prezidentinin sərəncamları ilə ölkənin sosial-mədəni və iqtisadi sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafına dair qəbul olunmuş dövlət proqramları, müvafiq qanunvericilik aktları ölkə ərazisində olan torpaq ehtiyatlarında səmərəli şəkildə istifadə üçün geniş imkanlar açıb. "Biz ciddi islahatlar həyata keçirməyə başladıq və onlar artıq yaxşı nəticə verir" - deyən Azərbaycan Prezidenti artıq şaxələndirmə prosesinin başlandığını və bizim bu prosesi səngitmək niyyətimiz olmadığını diqqətə çatdırıb.

Ölkəmizdə pambıqçılıq, tütünçülük, çayçılıq və s. inkişafın yeni bir dövrünü yaşayır. Ölkə başçısının kənd təsərrüfatının ayrı-ayrı sahələrin inkişafı ilə bağlı imzaladığı məlum sərəncamları bu sahələrdə artıq göstəricilərin yüksək səviyyədə olduğunu ifadə edir. Həyata keçirilən layihələr, islahatlar Azərbaycanın gələcək inkişafına yönəlsə də, hələ qarşıda daha böyük nailiyyətlər Azərbaycanı gözləyir. Təbii ki, iqtisadiyyatın yüksək inkişaf tempi insanların sosial-rifah halının daha da yaxşılaşması üçün etibarlı zəmin yaradıb, hər bir Azərbaycan vətəndaşının həyatında pozitiv dəyişikliklər baş verib.

## "BÜTÜN BUNLARI BİZ YARATMIŞIQ, YORULMAZ FƏALİYYƏT NƏTİCƏSİNDƏ, XALQ-İQTİDAR BİRLİYİ SAYƏSİNDƏ"

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmələri ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər. Cənab Prezidentin vurğuladığı kimi, Davos Dünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə, Azərbaycanı 35-ci yerə layiq görüb: "Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir". Son 15 il ərzində iqtisadiyyatı 3,2 dəfə artmışdır. "Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində", - deyən Cənab Prezident bizim iqtisadi inkişafla bağlı fikirlərimizin çox ümidverici və çox müsbət olduğunu bildirib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. "Bu hadisə, təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində", - deyən Prezident İlham Əliyev Azərbaycan əleyhinə birləşən qüvvələrə qarşı bu inam və diqqətin ölkəmizin gücünü və iradəsini bir daha ortaya qoymuş olduğunu bildirib.

Bütün sahələrdə əldə olunan uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi dayanır. Ötən 15 il ərzində Azərbaycan həm bölgədə, həm də dünya miqyasında ən sabit və dinamik inkişaf edən ölkələrdən birinə çevrilib. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Bütün bu inkişaf göstəriciləri insanlarda qəti bir əminlik formalaşdırmışdı ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı daha böyük uğurlar gözləyir. Azərbaycan Prezidentinin vurğuladığı kimi, "keçdiyimiz yol şərəfli yoldur, qələbələr və uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ziyası ilə işıq saçan görkəmli alim

*Bu gün şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum günüdür*



***Dünyanın ən sirli açarı elmdə və mütaliədədir. Həyat yarandığı zamandan insan həyatının əsas meyarı hikmət dolu dünyanın bağlı qalan tərəflərinə yol açmaqdır. Geniş biliyə və əhatəli dünyagörüşünə malik Azərbaycan ziyalılarından olan Aida İmanquliyeva da ömrünü elmə, elmin inkişafına həsr edən, ziyası ilə araşdırma və tədqiqatlar aparan alim kimi zəngin irs yaradaraq, qaranlıq qalan tərəflərə işıq salıb. Elmi fəaliyyəti dövründə ömrünü, istedad və zəhmətini birləşdirərək, ən yüksək pillələrə ucalıb.Tədqiqatla məşğul olan, elmin qapılarını açmağa cəhd edən insan üçün şərqşünas-alim, pedaqoq kimi şərəfli adlara nail olmaqdan şərəfli nə ola bilər ki? Aida xanım bu yüksəkliklərə pillə-pillə nail olub. Ağır və gərgin iş tələb edən bir sahədə uğurlara imza atıb.***

Təbii ki, Azərbaycan xalqının dünya miqyasında tanınmasında, onun nüfuzunun artmasında və dünyaya inteqrasiyasında mütərəqqi yolla inkişafında sayılıb-seçilən ziyalıların, elm xadimlərinin xidmətləri danılmazdır. Yüksək zəkası, istedadı, əxlaqi keyfiyyətləri ilə seçilən və ətrafa ziya və nur saçan belə zəka sahibləri xalqın say-seçmə övladlarıdır. Zaman belə insanları tarixiləşdirir. Xalqa bütün gücü ilə xidmət edən, elm zirvəsinə ucalan Aida İmanquliyevanın ömür yoluna nəzər salanda, bu ömrün hədər getmədiyini, cəmiyyət üçün dəyərli və lazımlı olduğunu aydın görürük. Şərəfli ömür yolunda elmə bağlılığı və ictimai fəaliyyəti diqqəti cəlb edir. Bu gün XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum günüdür. Tarixin bu günü Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru işləmişdir.

Tərcümeyi-halında qeyd olunub ki, Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi, ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyirdi. Elə, məhz buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

Aida İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, "Ərəb filologiyası" şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət bir kiçik antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("Mixail Nuayme və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri") və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnı almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında" (1970), "Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi" (1977), "Sovet Azərbaycanı və xarici Şərq" (1980), "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır.

Aida xanım İmanquliyeva fəal ərəbşünas alim, elmi ictimaiyyətin hörmətini qazanan nüfuzlu elm xadimi kimi tanınıb. O, 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olub. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış edib. Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və Yeni bir yol açıb.

Onun elmi fəaliyyəti, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Aida xanım İmanquliyeva ciddi iş rejiminə baxmayaraq, öz ailəsini və yaxınlarını daim diqqətdə saxlayıb. Məhz bu diqqətin nəticəsidir ki, onun ocağından olan və tərbiyə verdiyi qızları Mehriban xanım və Nərgiz xanım Azərbaycanın ictimai həyatında böyük rola və nüfuza malikdirlər. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu gün dünyaya Azərbaycanı tolerantlığın ünvanı kimi təqdim edir. Mehriban xanım Əliyeva əməlləri ilə humanizm simvoluna çevrilib.

Aida İmanquliyeva özündən sonra zəngin elmi irs qoyub. Elmi-ictimai fəaliyyəti, analıq missiyası ilə abidəsini qəlblərdə ucaldıb.

Görkəmli ədəbiyyatşünas xanım A.İmanquliyeva 1992-ci il sentyabrın 19-da Bakıda vəfat edib.

***ZÜMRÜD***

## Sevinc Fətəliyeva: "AŞPA-da üzv dövlətlərə bərabər yanaşma sərgilənməli, əməkdaşlıq şərtləri eyni olmalıdır"

AŞPA-nın 70 illik fəaliyyətinin astanasındayıq. Həyata keçirilməyən qətnamələr, qərarlar qəbul etməyimiz bəs deyilmiş kimi, hələ bir onilliklər ərzində işğalçılarla birlikdə əyləşərək qərarlarımızı yerinə yetirməyə və işğalçı siyasəti dayandırmağa məcbur edə bilmirik.



Bu fikri AŞPA-nın payız sessiyası çərçivəsində qurumun səlahiyyətlər və səsverməyə dair qərarqəbuletmə prosesinin möhkəmləndirilməsi ilə bağlı müzakirələrdə çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva söyləyib. Sevinc Fətəliyeva bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı AŞPA-nın 2005-ci ildə qəbul etdiyi qətnaməyə Ermənistan riayət etməyib və qurumun bununla bağlı heç bir sanksiyası olmayıb. Qərarlar hər hansı üzv dövlətin və ya xalqın deyil, yalnız müəyyən şəxslərin maraqlarına uyğun qəbul edilir. Üzv dövlətlərə bərabər yanaşma sərgilənməli, əməkdaşlıq şərtləri eyni olmalıdır. Təşkilatımızda buna böyük ehtiyac var. Bu baxımdan Assambleyada böhran yaşamağımız təəccüblü deyil. "Son zamanlar qərarların qəbulunda dövlətlərin və xalqların maraqlarına əsaslanmaq əvəzinə müəyyən insanların, dairələrin maraqlarını güdürük. Bəyəm AŞPA elmi tədqiqat mərkəzidir ki, sadəcə problemləri qoyur, onlara baxır və həll yolu təklif edir, hər hansı prosesə təsir və qərar qəbul edə bilmir?

Yetmiş il əvvəl parlamentarilərin mübarizə apararaq, öz həyatlarını həsr edərək müəyyən etdikləri dəyərlər son zamanlar itirilir. Fundamental azadlıqlar və insan haqları araşdırma obyekti olaraq qala bilməz, bu məsələlər ciddi qərarlar və real addımlar tələb edir. Qərarların qəbul edilməsində daha ciddi olmaq, AŞPA-nın nüfuzunu qaldırmaq lazımdır. Səyləri birləşdirərək, üzvlər arasında dialoq yaratmaq və problemləri həll etmək lazımdır. AŞPA-da həmişə əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət ən yaxşı həll olub", - deyə Azərbaycan nümayəndə heyətinin üzvü bildirib.

## 14 dini icmaya "Khazar SD" maşını hədiyyə edildi



Prezident İlham Əliyevin Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı 11 sentyabr 2018-ci il tarixli Sərəncama əsasən oktyabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunda 14 dini icmaya "Khazar SD" markalı avtomobillərin açarları təqdim edilib. SİA xəbər verir ki, mərasimdə Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi və Himayəçilər Şurasının üzvləri iştirak ediblər. Noyabr ayında isə növbəti 7 dini icmaya avtomobillərin verilməsi nəzərdə tutulub.

Tədbirdə çıxış edən icma sədrləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, sözügedən Sərəncama uyğun olaraq bundan əvvəl Naxçıvan Muxtar Respublikasında 4 dini icmaya "NAZ Lifan 330" markalı avtomobillər verilib.

## Bəhruz Quliyev: "Xalq hər zaman İlham Əliyevə və yürüdülən siyasətin məntiqi davamına səs verib"



Artıq, 2013-cü ilin 9 oktyabr tarixində keçirilmiş Prezident seçkilərindən və bu seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin qətiyyətli, inamlı qələbəsindən 5 il ötür. Bununla bağlı SİA-ya fikirlərini bildirən "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev bildirib ki, 2013-cü ildə keçirilmiş prezident seçkiləri Azərbaycan Respublikası Prezidenti postuna keçirilən 7-ci rəsmi seçkilər olub, eyni zamanda, bu seçkilərdə 10 namizəd iştirak edib: "Məhz Azərbaycan xalqının cənab İlham Əliyevə sarsılmaz inamı və tükənməz etimadı, eləcə də Onun yürütdüyü məqsədyönlü, uğurlu siyasətini dəstəkləməsi dövlət başçısı postuna keçirilən seçkilərdə birmənalı qələbəsini təmin etmiş oldu. Belə ki, demokratik standartlara cavab verən bu prosesdə Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi".

Bəhruz Quliyev bir məqamı da xatırladıb ki, ümumiyyətlə, seçkilərdəki qalibiyyət, təkcə, seçki kampaniyası dövründə təbliğat-təşviqat işindən asılı deyil: "İlham Əliyev 2003-cü ildən başlayaraq, əməli işləri ilə bu uğurların təməlini qoyub. Onun 2003-cü ildən başlayaraq həyata keçirdiyi işlərin davamı növbəti seçki dönəmlərinə qədər aparıldı və Azərbaycan xalqı Onun əməli işlərinin ölkəmizi hansı uğurlara doğru istiqamət aldığını real şəkildə gördü və aparılan siyasətin məntiqi davamına səs verdi. Bu baxımdan, seçkilərdə əldə edilən qələbələr sırasına 2013-cü il seçkiləri də qızıl hərflərlə həkk olundu. Prezident İlham Əliyevin daxili və xarici siyasətdə qazandığı uğurlar, iqtisadiyyatda, sosial məsələlərdə əldə edilən nailiyyətlər Ona olan etimadı dayanmadan artırdı. Əbəs deyil ki, bu gün Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun yüksək olması, istər regional, istərsə də dünya əhəmiyyətli layihələrdə təşəbbüskar və iştirakçı qismində çıxış etməsi, bütövlükdə isə, hər bir möhtəşəm uğur bilavasitə xalqımızın, dövlətimizin rifah halının daha da yaxşılaşdırılmasına, tərəqqisinə töhfələrini vermiş oldu. Xalq, öz müqəddəratını məhz inandığı, etimad etdiyi şəxsiyyətə - cənab İlham Əliyevə həvalə etdi. Bu gün Azərbaycan xalqının İlham Əliyevin ətrafında sıx birləşməsi faktoru da bu amildən doğan məntiqi nəticədir".

"Beləliklə, 9 oktyabr 2013-cü il tarixində keçirilən Prezident seçkilərində Azərbaycan xalqı növbəti beş il üçün həm özünün, həm də dövlətimizin gələcəyinə səs verdi, yenidən ölkə başçısı cənab İlham Əliyevə etimad göstərdi, Ona inamını ifadə etdi və güclü Azərbaycan naminə güclü Liderini seçdi", deyə vurğulayan "SƏS" qəzetinin baş redaktoru eyni zamanda bildirib: "Demokratiyanın təntənəsi olan bu seçkilərdə Azərbaycan xalqı azad, şəffaf şəkildə öz iradəsini ortaya qoydu, hər bir azərbaycanlının Prezidenti olmağı bacaran, bu vədini əməli şəkildə yerinə yetirən İlham Əliyev bir daha sübut etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasi varisidir, ən böyük azərbaycanlının ən böyük davamçısıdır".

Bəhruz Quliyev son olaraq xatırladıb ki, seçki ərəfələrində həm beynəlxalq ekspertlər, həm də xarici kütləvi informasiya vasitələri Azərbaycanda keçirilən seçkilərin beynəlxalq standartlara uyğun, azad, demokratik və şəffaf keçirildiyini bəyan edərək, ölkəmizin insan hüquq və azadlıqları sahəsində əldə etdiyi nailiyyətləri növbəti dəfə etiraf ediblər: "Əlbəttə ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin həyata keçirdiyi müasir Azərbaycanın inkişaf konsepsiyasının tərkib hissəsidir və söz yox ki, xalqımız hər zaman Ümummilli Liderin siyasi xəttinə sadiq olan Prezident İlham Əliyevə inandığını və Onu hər zaman dəstəklədiyini növbəti dəfə nümayiş etdirib, bundan sonra da etdirəcək. Biz, 2018-ci ilin aprelində keçirilən növbəti Prezident seçkilərində də bu reallığın şahidləri olduq".

*Rövşən NURƏDDİNOĞLU*

## Naim ul Haq: "Pakistan dost və qardaş ölkə olan Azərbaycan ilə əlaqələrə həmişə xüsusi önəm verir"



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Baş nazirinin siyasi məsələlər üzrə xüsusi köməkçisi Naim ul Haqla görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə səfir Pakistan ilə Azərbaycanın yaxın dost və qardaş ölkələr olduğunu bildirib. Diplomat ölkəmizin Pakistan ilə siyasi əlaqələrlə yanaşı, iqtisadi, ticari, müdafiə sənayesi, hərbi və hərbi-texniki, enerji, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Azərbaycanın Pakistana dəstəyini davam etdirəcəyini deyən Ə.Əlizadə ölkəmizdə Pakistanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və digər həssas məsələlərdə Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib.

Naim ul Haq Pakistanın yaxın dost və qardaş ölkə olan Azərbaycan ilə əlaqələrə həmişə xüsusi önəm verdiyini, münasibətlərin daha da inkişafına çalışdığını, iqtisadi, ticari, enerji, sərmayə qoyuluşu sahələrində əməkdaşlığın daha da artırılması üçün səylərin davam etdirilməsinin mühüm məsələlərdən olduğunu bildirilib. Görüşdə, həmçinin qarşılıqlı səfərlərin artırılması, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində dəstəyin davam etdirilməsinin vacibliyi vurğulanıb.

## "Elə bir sahə yoxdur ki, dövlət başçısının diqqətindən kənarda qalsın"



"Azərbaycan sosial dövlətdir və icra olunan layihələrin böyük hissəsi ölkəmizin sosial sferasını əhatə edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, son 15 ildə ölkəmizin yol infrastrukturu, içməli su və kanalizasiya xidmətləri, səhiyyə müəssisələri, təhsil ocaqları, elektriklə təminatında və elektron rabitə xidmətlərinin göstərilməsində yenidənqurma işləri sürətlə aparılıb, Azərbaycan müasir inkişaf edən ölkəyə çevrilib: "Cənab Prezidentin 4 oktyabrda imzaladığı sərəncamla çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsinə dövlət büdcəsindən 21 milyon manatdan çox vəsaitin ayrılması da ölkə üzrə nəzərdə tutulan 436 çox mənzilli binada yaşayan insanları sevindirməklə yanaşı şəhərlərimizə yeni görkəm verəcəkdir. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə elə bir sahə yoxdur ki, dövlət başçısının diqqətindən kənarda qalsın. Bu bir daha onu deməyə imkan verir ki, cənab İlham Əliyevi ölkəmizin hər bir vətəndaşının rifahının yaxşılaşdırılması düşündürür və atılan addımlar da buna xidmət edir".

## Eldar İbrahimov: "Azərbaycanın ədalətli mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır"



"Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, münaqişənin ədalətli həlli dövlətimizin siyasətinin əsasını təşkil edir". Bu fikri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib. E.İbrahimov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev bütün səviyyələrdə, beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı ölkəmizin prinsipial mövqeyini qətiyyətlə bəyan edir: "Bu mövqe ondan ibarətdir ki, Ermənistan işğalçılıq siyasətinə son qoymalı, onun hərbi birləşmələri torpaqlarımızdan çıxmalı, qaçqın və məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıtmalıdırlar. Dağlıq Qarabağa isə Azərbaycanın tərkibində müəyyən status verilə bilər.

Azərbaycanın bu mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır. Həm BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində, həm də, digər beynəlxalq qurumların sənədlərində ölkəmizin ərazi bütövlüyü dəstəklənir. Qeyd etdiyim kimi, dövlətimiz bu istiqamətdə siyasətini davam etdirir və diplomatik cəbhədə böyük uğurlar qazanır. Nəzərə almaq lazımdır ki, bu məsələ ümummilli məsələdir və bütün vətəndaşlar burada həmrəy olmalıdırlar".

## "Prezidentə inam və dəstək artan dinamika üzrə gedir"



"İlham Əliyev 2013-cü il oktyabrın 9-da üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Seçicilərin əksəriyyəti İlham Əliyevin lehinə səs vermişdir. Bu tarixin kökündə Azərbaycan cəmiyyətinin cənab İlham Əliyevə həm seçkidə, həm də seçkidən sonrakı proseslərdə dəstək verməsi dayanır. Ölkədəki bəzi siyasi qüvvələr bu prosesi şübhə altına almağa cəhd göstərsələr də Azərbaycan cəmiyyəti İlham Əliyevi Prezident kimi görmək istədiyini bir daha nümayiş etdirdi". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Onun sözlərinə görə, ilkin mərhələdə seçicilərin əksəriyyətinin səsini qazanan Prezident sonrakı seçkilərdə Azərbaycan cəmiyyətinin rəqəmlərlə ifadə olunan bu dəstəyini xeyli inkişaf etdirdi: "Sonuncu seçkilərdə hətta 85 faizə qədər Azərbaycan cəmiyyətinin İlham Əliyevə dəstək verdiyinin şahidi olduq. Yəni 2003-cü ildən başlayaraq indiyədək Azərbaycan cəmiyyətinin İlham Əliyevin Prezidentliyinə inamı və dəstəyi artan dinamika üzrə gedən bir prosesdir. Əlbəttə ki, bu artaraq gedən dinamikanın arxasında sosial, iqtisadi, siyasi, mədəniyyət sahəsində, eləcə də Azərbaycanın xarici siyasətində həyata keçirilən və real nəticələri olan çox böyük proseslər var. Bütün bu proseslərin nəticəsi olaraq demək mümkündür ki, İlham Əliyev Prezidenti postunda 2003-cü ildən indiyədək hətta ona şübhə ilə yanaşan müəyyən siyasi dairələr də var idisə, onların bütünlüklə hamısının və bütünlüklə xalqın gözündə özünü leqitimləşdirə bildi.

Bu 15 illik proses cənab İlham Əliyevin Azərbaycan xalqının gözündə özünü tam şəkildə sübuta yetirməsi və leqitimləşdirilməsi dövrüdür. Bu dövrün içərisində Azərbaycanın məhz onun rəhbərliyi altında bütün sahələrdə böyük uğurlarından danışmaq mümkündür. Hansı ki həmin uğurlu proseslər bu gün də davam edir".

## DSX: İrandan Azərbaycana keçən sərhəd pozucusunun üzərində xeyli miqdarda narkotik vasitə aşkarlanıb



Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini qətiyyətlə davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 1-də Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Göstərilən tarixdə saat 00:56 radələrində DSX-nin sərhəd qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin Astara rayonu Sım kəndindəki sərhəd zastavasının xidməti sahəsində həyata keçirilmiş qoşun və əməliyyat-axtarış tədbirləri nəticəsində İrandan Azərbaycana dövlət sərhədini pozaraq keçən İran vətəndaşı 1983-cü il təvəllüdlü Şahbazi Əkbər Dilavər sərhəd pozucusu qismində saxlanılıb.

Saxlanılan şəxsin üzərinə baxış keçirilərkən 1 kiloqram 200 qram heroin, 710 qram tiryək, 200 ədəd "tereqabalin" psixotrop maddəsi və 15 qutu "metrotan" həbləri aşkarlanıb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitəni qəbul etmək üçün həmin əraziyə gəlmiş Azərbaycan vətəndaşları - Astara rayon sakinləri 1972-ci il təvəllüdlü Əkbərov Rövşən Firudin oğlu, 1982-ci il təvəllüdlü Vəliyeva Xəyalə Yaqut qızı, həmçinin narkotik vasitənin sifarişçisi, Lənkəran rayon sakini 1986-cı il təvəllüdlü Məmmədov Pərviz Əsəd oğlu saxlanılaraq istintaqa cəlb olunublar. Hadisə ilə bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu gün ölkəmizdə əlilliyi olan şəxslər dövlət qayğısı ilə hərtərəfli təmin olunublar. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb, sosial təminatları ildən-ilə daha da yaxşılaşır. Əlilliyi olan şəxslərin maddi və mənəvi təminatlarının gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası, ictimai həyatın bütün sahələrində fəal iştirak imkanlarına malik olması Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir.***



# Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi sosial siyasətin proritet istiqamətlərindəndir

Şəhid ailələrinə diqqət və qayğının davamı olaraq, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı məlum Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, öl-

## Dövlət başçısı İlham Əliyevin şəhid hərbi qulluqçuların ailə üzvlərinə 11 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında imzaladığı Fərman məmnunluqla qarşılanır



müş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək.

Fərmanın icrasının tam şəffaf, vətəndaş məmnunluğuna səbəb olacaq şəkildə yerinə yetirilməsi üçün bir sıra işlər görülüb. Fərmana əsasən, bu kateqoriyadan olan hər bir şəhid ailəsinin vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə həyata keçiriləcək. Artıq oktyabrın 9-dan hərbi qulluqçuların ailə üzvləri nazirliyin saytında (www.mlspp.gov.az) "BİRDƏFƏLİK ÖDƏMƏ" bölməsinə daxil olmaqla hərbi qulluqçunun soyadı, adı və atasının adını daxil edərək, birdəfəlik ödəməni almağa hüququnun olub-olmadığını yoxlaya bilərlər.

Bu gün Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş Oğuz rayonu Ərmənət kənd sakini, şəhid Süleyman Nəriman oğlu Ramazanovun qardaşı Mehman Ramazanov "Səs" qəzeti ilə fikirlərini bölüşərək bildirdi ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasıyla bağlı verdiyi Fərman dövlətin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının əyani təzahürüdür: "Bu, ölkə Prezidentinin andiçmə mərasimindən və səlahiyyətlərini icra etməyə başladıqdan sonra imzaladığı ilk qanunvericilik aktıdır. Ölkə başçısı bununla bir daha təsdiq edib ki, dövlətin həyata keçirdiyi ardıcıl sosial siyasət daha da gücləndiriləcək, xüsusi diqqət və qayğıya ehtiyacı olan vətəndaşlarının problemlərinə bundan sonra da həssaslıqla yanaşılacaq".

Ümumilikdə, Azərbaycanın iqtisadi inkişafı, dövlət gəlirlərinin artması ölkənin müdafiə potensialının gücləndirilməsi, hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi üçün şərait yaradıb. Hərbçilərin xidmət, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və digər istiqamətlər üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. M.Ramazanovun sözlərinə görə, 1997-ci ildə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qüvvəyə mindikdən sonra hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsinə dair normativ-hüquqi baza formalaşdırılıb ki, Azərbaycan dövləti ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə ardıcıl tədbirlər həyata keçirməyə başlayıb: "Bu mənada, qəbul olunan yeni Fərmanda, məhz 1997-ci ilin avqustun 2-nə qədər olan tarixin nəzərdə tutulması həmin ildən başlayaraq, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş, itkin düşmüş şəxslərin ailələrinin sosial müdafiə məsələlərinin həlli üçün oxşar tədbirlərin həyata keçirilməsinə həmin dövrdən başlanılmasıyla bağlıdır".

M.Ramazanov bir şəhid qardaşı kimi bildirdi ki, Prezident İlham Əliyevin imzaladığı bu Fərman göstərir ki, qarşıdakı illərdə dövlətimizin sosial siyasətinin ana xəttini dövlətimizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarını fəda edərək, şəhid olmuş insanların və itkin düşmüş şəxslərin ailələrinin qayğılarının yüngülləşdirilməsi təşkil edəcək:"Bu Fərman, eyni zamanda, Vətənimizin müdafiəsi uğrunda qətiyyətli mübarizənin ön yerdə olacağından da xəbər verir. Bu Fərman Azərbaycan vətəndaşına, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını qurban vermiş, sağlamlığını itirmiş insanlara olan münasibətin bir göstəricisidir. Azərbaycanda xüsusi təbəqə hesab edilən şəhid ailələrinin problemlərinin həlli, onlara diqqət və qayğının göstərilməsi daim Azərbaycan Prezidentinin siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Dövlət başçısının Fərmanı təkcə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli ilə bağlı deyil, eyni zamanda, ölkəmizdə vətənpərvərliyin, mənəvi dəyərlərin yüksəlməsi, həmçinin, hazırda sərhədlərimizi müdafiə edən əsgərlərimiz və onların yaxınlarının əhval-ruhiyyəsinin artırılması baxımından da əhəmiyyətlidir".

Prezident məhz seçkilərdən sonra belə bir Fərman imzalamaqla, bir daha göstərdi ki, ölkəmizdə şəhidlərə və onların ailələrinə, Qarabağ veteranlarına olan münasibət hansısa kampaniya ilə bağlı deyil, ümumilikdə, dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir: "Düşünürəm ki, bu, Azərbaycanda hərbi-vətənpərvərlik ruhunun daha da artmasına kömək edən bir qərardır", - deyən M.Ramazanov bu qərarların arxasında maliyyə vəsaiti amili olduğunu da qeyd etdi:"Əgər Azərbaycanın dövlət büdcəsi buna imkan verməsə, iqtisadiyyatımız inkişaf etməsə, bu cür addımlar atmaq mümkün olmaz. Dünyada gedən iqtisadi böhranlara baxmayaraq, Azərbaycan Prezidentinin 2014-cü ildən sonra iqtisadi islahatlarla bağlı atdığı addımlar öz nəticəsini verib. Azərbaycanın büdcəsində kəsir yoxdur. Ölkəmizin büdcəsi bu cür problemləri həll edəcək qədər güclü büdcədir. Qarşıdakı illərdə də sosial qayğıya ehtiyacı olan insanların problemlərinin həlli daima Azərbaycan Prezidentinin diqqət mərkəzində olacaq".

***Zümrüd BAYRAMOVA***

# Nikol Paşinyan ölkəsində siyasi böhranın olduğunu etiraf edir

## *Seçkilərin bu ilin dekabr ayına ertələnməsi gözləntiləri böyükdür*

***İnqilab əhval-ruhiyyəsi Ermənistanda hələ də davam edir və indi bu dalğanın daha hansı nəticələrə səbəb olacağı maraq dairəsindədir. Yenə də küçələrə toplaşanlar idarəedilməz kütlə təəssüratı bağışlayır və parlamenti çevrəyə alanların, rəhbər hökumətə ultimatum göndərənlərin halı, narazılıqların hökm sürdüyü bir mənzərəni xatırladır. Bundan əvvəlki inqilab dalğasının nəticəsi kimi qələmə verilərək baş nazir postuna yerləşdirilən Nikol Paşinyan belə ölkəsində siyasi böhranın olduğunu etiraf edir.***



Baş nazir, hətta "istefa verməliyəm" deməkdən də çəkinmir. Doğrudur, bunun mənfi reaksiya doğuracağı, ağıllı ssenari olmayacağı barədə də fikrini bildirən Paşinyanın, öz postunu müdafiə etmək cəhdləri də göz qabağındadır. Amma hər halda, qeyd etdiyi siyasi böhrandan, budəfəki inqilab dalğasından ehtiyat etdiyini də təkzib etmək olmaz.

Maraqlıdır, Paşinyanın siyasi böhran dediyi bu xaos hardan qaynaqlandı və səbəb nə oldu? Bu ikihakimiyyətlilik və mövcud qarışıqlıq nədən yarandı? Əgər kütlənin tələbi ilə küçə nümayişçisinə baş nazir kürsüsü həvalə edilmişdisə, hətta gücünün azlıqda olduğu parlamentdə özünün hökumət başçısı təyin edilməsi üçün çoxluğu vadar edirdisə, o zaman növbəti inqilab dalğasını labüd edən nədir? Yaxud Serj Sarkisyanın istefasını tələb edən 23 aprel küçə etirazları, yəni özlərinin inqilab adı verdikləri küçə nümayişləri sonda, nəticə etibarı ilə əgər kütlənin istəyini təmin etdisə, o zaman növbəti, ikinci bir inqilab dalğası olmamalı idi axı. Deməli, bu inqilab adı verdikləri nə inqilab deyildi, nə bunun kütləyə aidiyyatı yox idi, nə də demokratiya anlamını ifadə etmirdi. Proseslər zamanı gözdən pərdə asmaq üçün demokratiya, kütlənin etirazı, nümayiş və inqilab ifadələri komuflyaj kimi istifadə olunurdu. Qərb ssenarisi ilə başladılan və davam etdirilən hadisələr Paşinyan hakimiyyətini təmin etmək niyyəti güdürdü və buna nail olundu da. Doğrudur, bu hakimiyyət təmin olunsa da, ən qısa zaman fasiləsində Paşinyan hakimiyyətinin müvəqqəti olduğu qənaətinə gəlindi. Əlbəttə, Paşinyanın özündən də qabaq onun müvəqqəti olduğunu Qərb özü də anladı və yəqin ki, elə ilk anlardan belə, məhz bu səbəbdən, arxasından çəkildi və meydanda tək qoydu. Meydanda tək qaldığının, müvəqqəti olduğunun fərqində olan Nikol isə dərhal hakimiyyətini mühafizə etmək üçün müxtəlif yollara əl atmalı oldu ki, bunlardan birincisi Qərb diplomatiyasına müraciət etməsi idisə, ikincisi də daxili auditoriyaya hesablanmış fəaliyyəti oldu.

### Bunların heç birinin işə yaramadığını anladığı andan isə müvəqqəti hakimiyyət dövrünü uzatmaq, nə yolla olursa-olsun, hakimiyyəti saxlamaq niyyəti ilə baş nazir hələ də baş sındırır

Hakimiyyətinin müvəqqətiliyinə əmin olduğu zaman Paşinyan çıxış yolu kimi Milli Məclis seçkilərinin vaxtının dəyişdirilməsi, ertələnməsi taktikasını işə salmalı oldu. Güman ki, baş nazir hələ də eyforiyada olan, onun pafoslu nitqlərinin təsirində olan, hələ ki, ona inanan azçox nə qədər adam qalıbsa onların sayından, mövcudluğundan istifadə etməyə qərarlıdır. Paşinyan görür ki, get-gedə onun tərəfdarlarının sayı azalmaqdadır və bu da, nəticə etibarı ilə onun hakimiyyətdən getməsi anlamına gəlir. Ermənistandakı ikinci inqilab dalğası özü belə bu faktı təsdiq edir və hər an baş nazirin də istefası reallaşa bilər. Əbəs yerə deyil ki, Paşinyan özü belə bu istefa barədə də söz açır və bunun doğru olmayan ssenari olduğunu xatırlatmaqla özünə lazım olan fikir formalaşdırmaq niyyəti güdür. Seçkilərin ertələnməsində isə məqsəd gündən-günə azalan tərəfdarlarından zamanında, hətta imkan olduqca, bir az da tez istifadə etməkdir. Gələn ilin may ayında keçirilməsi nəzərdə tutulan seçkilərin bu ilin dekabrına təyin edilməsində maraq yalnız budur. Paşinyan Ermənistanda hər gün, hətta hər an dəyişə bilən vəziyyətdən ehtiyat edir və bir neçə ay müddətində şəraitin tamamilə əksinə dəyişməsindən nəticə çıxaran baş nazir may ayına qədər tərəfdarları arasında bircə nəfərin belə qalmayacağını çox gözəl dərk edir. Hakimiyyətini legitimləşdirmək üçün seçkilərin vaxtının bu ilin dekabr ayına ertələnməsi niyyətini bu baxımdan başa düşmək çətin deyil.

Ermənistanın yeni hakimiyyəti, nümayişçilər yanıldıqlarını və səhv etdiklərini qəbul edirlər. Diplomatiyada məğlubiyyət, siyasi böhran adlandırdıqları, əslində, ölkədə hökm sürən xaos və iflas göz qabağındadır. Gah Qərb istiqamətində, gah da Rusiyaya meyil etmələri, nəticədə hər ikisindən məhrum olmaları ölkənin təklənməsinə, marginallaşmasına köklü səbəbdir. Rusiya hələ də Ermənistandakı qarışıqlıqları təmkinlə seyr edir. Halbuki Moskva bir anda Ermənistanın anarxist mitinq stixiyasını durdurmağa, qarşı-qarşıya duran düşərgələrin mövqelərinin radikallaşmasını aşağı salmağa və siyasi prosesi normal məcraya yönəltməyə qadirdir. Bütün bunların müqabilində Rusiya da, Qərb də ermənilərin səhvlərini emosiyasız şəkildə izləməkdə davam edir. Çox güman ki, hələ ermənilər səhvlər etməkdə davam edəcək və bu qarışıqlıq davam edəcək. Amma bir məsələni diqqətə çatdırmaq yerinə düşərdi ki, İrəvanın səhvləri bütün Ermənistanı dünyanın siyasi xəritəsindən silə bilər. Çünki tək qalmasına, marginallaşmasına səbəb olan bu yanlışlıqlar, səhv addım onsuz da məhv olmaq təhlükəsi ilə üz-üzə qalan işğalçı dövlətin tamamilə süqutunu get-gedə reallaşdırır.

**İnam HACIYEV**

## Şarmazanov: "Ermənistanın sonu çatıb"



"Artıq sonumuz çatıb. Ermənistanda Konstitusiya və hakimiyyətin ayrılıq prinsipi təcavüzə uğrayıb". SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bu fikirləri Ermənistanın Respublikaçılar Partiyasının mətbuat katibi, Parlamentin vitse-spikeri Eduard Şarmazanov açıqlamasında deyib.

Onun sözlərinə görə, Ermənistanda ilk dəfədir ki, icraçı hakimiyyət güc yolu ilə qanunverici hakimiyyətin ərazisinə daxil edilib: "Bunu kim necə adlandırır adlandırsın. Lakin vaxtilə Bonapart, Hitler də belə hərəkət edib. Özləri atəş edərək, xalqın adına çıxıblar. Ermənistanda ilin sonunda keçiriləcək seçkilərdə kimin hansı səs faizi yağması əsas deyil. Çünki, son yetişib. Ermənistanda plüralizm ölüb".

Şarmazanov qeyd edib ki, Ermənistanda keçiriləcək seçkilərdə təkcə baş nazir deyil, diktator, kralı və ya tiran seçiləcək: "Bunu istəyirdinizsə, artıq həzz ala bilərsiniz. Bu fikirlərimin əks reaksiyaya səbəb olacağını yaxşı başa düşürəm. Lakin mən bunları öz vicdanımın təmiz olması üçün söyləyirəm. Məgər 20-30 və ya 100 min nəfər toplayanlar istədiyini edə bilər? Siyasətdə bumeranq qanunu mövcuddur. Bunu səhvlərimizə görə söyləyirəm".

## Sülh prosesinə zərbə vuran "sülhməramlılar"



***Davamlı sülh və təhlükəsizliyin təmin olunmasında qadınların rolunun artırılmasının vacibliyi bütün dünya ictimaiyyətinə bəllidir. Beynəlxalq təşkilatlar bu məsələni daim gündəlikdə saxlamağa çalışaraq mövcud münaqişələrin həlli prosesində qadınların iştirakçılığının artırılmasına dair bir sıra sənədlər, o cümlədən 1325 saylı BMT qətnaməsini qəbul ediblər. Azərbaycan Respublikası da "Qadınlar Sülh və Təhlükəsizlik Gündəliyi"nin daim tərəfdarı olub və belə təşəbbüsləri dəstəkləməkdədir. Çünki yalnız beynəlxalq hüquqa əsaslanan öhdəliklərin, vəzifələrin və məsuliyyətlərin müəyyənləşdirilməsi şərti ilə həyata keçirilən "sülhməramlı fəaliyyət"in faydalı ola biləcəyinə ümid edir.***

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclis sədrinin müavini Bahar Muradova deyib. Bahar Muradova bildirib ki, sülhməramlılıq özü-özlüyündə yalnız gözəl sözlər, cazibədar şüarlardan ibarət olmayıb, səbəb və nəticələri təsdiqini tapmış problemlərin həlli üçün hədəfləri və fəaliyyət istiqamətləri dəqiq şəkildə müəyyən edilmiş, iştirakçı və təşəbbüskarlarının qərəzsizliyinə, bitərəfliyinə öz maraq və faydalarının üstün tutulmasına şübhə doğurmayan bir şəkildə həyata keçirməlidir.

"Gəlin baxaq, Ermənistan baş nazirinin həyat yoldaşı və onu müşayiət edən Rusiya Federasiyası vətəndaşlarının Azərbaycanın işğal olunmuş ərazilərinə etdikləri səfər bu kriteriyalara nə dərəcədə cavab verir? Ümumiyyətlə bu səfəri "sülhməramlı" adlandırmaq olarmı? - Əlbəttə ki, yox. Yalnız ona görə yox ki, bu ərazilərə edilən səfərlər Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə dair mövcud qanunların kobud şəkildə pozulmasıdır. BMT-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair məlum dörd qətnaməsinin, eləcə də digər beynəlxalq təşkilatların münaqişənin həllinə dair qəbul etdikləri sənədlərin münaqişə tərəfi kimi Ermənistanın üzərinə qoyduğu öhdəliklərə etinasız bir münasibətdir. Eləcə də Rusiya Dövlət Dumasının beynəlxalq əlaqələr komitəsinin sədr müavini Svetlana Yurova və digərlərinin bu tərkibdə iştiraka cəlb olunması təəssüf doğurmaqla yanaşı, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiyanın qərəzsiz və obyektiv vasitəçiliyinə inamın azalması ilə yanaşı, Azərbaycan və Rusiya arasında əlaqələrin hərtərəfli inkişafına kölgə salmaq məqsədilə Ermənistan tərəfinin humanizm və sülhə çağırmaq adı ilə pərdələnərək həyata keçirmək istədiyi məkrli planın tərkib hissəsidir.

Nəzərə alsaq ki, münaqişə və müharibədən ən çox əziyyət çəkən Azərbaycan tərəfidir, "Təmas xətti" adlandırılan, amma reallıqda "Cəbhə xətti" Azərbaycan ərazisindədir. Bütün döyüşlər və onların dəhşətləri məhz Azərbaycan xalqına və ölkəmizə daha çox ziyan vurur. İyirmi beş ildən artıq bir müddətdə xanım Hakopyanın ölkəsinin silahlı qüvvələri işğalçı fəaliyyətini Azərbaycan torpaqları üzərində həyata keçirir. Elə həmin Hakopyanın və sülh danışıqları zamanı öz ölkəsini təmsil edən Ermənistanın baş naziri Paşinyanın oğlu öz hərbi xidmətini bu qüvvələrin sırasında Qarabağın və ətraf 7 rayonun işğal altında saxlanmasına həsr edilən təcavüzkar planların reallaşdırılmasında iştirak üçün göndərilib. Onda hansı sülh məramlılıqdan danışmaq olar?", - deyə Bahar Muradova diqqətə çatdırıb.

Milli Məclis sədrinin müavini qeyd edib ki, məlum inqilab dalğasında Ermənistanda hakimiyyətə gələn bu cütlüyün öz ölkələrindəki qeyri-peşəkar, nəyin bahasına-olursa olsun öz siyasi ambisiyalarını gerçəkləşdirməyə yönəlik fəaliyyətlərini bu şəkildə beynəlxalq arenaya daşımaq istəkləri özü-özlüyündə sülhməramlılıq və onun mahiyyətinin kobud şəkildə təhrif olunmasıdır. Belə təşəbbüslər sülh danışıqları prosesinə mənfi təsir göstərməklə vəziyyətin daha da gərginləşməsinə səbəb olur və münaqişə tərəfləri kimi Ermənistan və Azərbaycan arasındakı mövcud atəşkəs rejiminin möhkəmləndirilməsi istiqamətindəki səyləri heçə endirir.

Bahar Muradova vurğulayıb ki, Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarına təşkil edilən belə səfərlər təkcə sülhməramlı deyil, həm də ümumiyyətlə, xoşməramlı olmayıb, Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət edir. Çünki haqqa, ədalətə, beynəlxalq hüquqa və qarşılıqlı məsuliyyətə əsaslanmayan belə "sülhyaratma missiyaları" yalnız qarşıdurmaya və müharibənin nəticələrinin möhkəmləndirilməsinə şərait yaratmaqla ölkələrin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin bölünməzliyi prinsiplərini pozmaqla ərazi işğalına haqq qazandırmaq və separatizmi təşviq etməkdir. "Odur ki, mən rusiyalı həmkarlarıma üzümü tutaraq onları sülhməramlılıq pərdəsinə bürünmüş belə bir avantürist fəaliyyətin tərkib hissəsi olmaqdan çəkinməyə çağırıram", - deyə parlament sədrinin müavini bildirib

***Cəmiyyətdə mübarizə apardığımız hadisələr artıq məktəblərə də sirayət edib desək yanılmarıq. Başqa ölkələrin məktəblərində baş verən zorlama, narkotik, tütündən istifadə kimi hallarla bağlı son dövrlərdə kifayət qədər xəbərlərin, videoların yayıldığının şahidiyik. Məktəblərdə şagirdlərin bir-birinə təcavüz etməsi barədə xəbərlər hər birimizdə narahatlıqla yanaşı, narazılıq da yaradır. Hətta bir müddət bundan öncə məktəblərdə narkotik tabletlərin paylanıldığı da gündəmdə gəlmişdi. Azərbaycanda Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Bakı şəhər üzrə Təhsil İdarəsi, eləcə də digər qurumlar tərəfindən məktəblərdə bir sıra istiqamətlər maarifləndirmə işləri aparılır, məsləhət və tövsiyələr verilir. Belə olan halda, nəyə görə, bu cür halları azalmaq əvəzində getdikcə artır? Məktəblərdə baş verənlərin qarşısını necə ala bilərikmi?***

ARAŞDIRMA



# Valideyn, yoxsa məktəb məsuliyyətsizliyi?

### “Şagirdlərin pis vərdişləri bəşəriyyət üçün böyük problemlərə gətirib çıxara bilər”

Təhsil üzrə ekspert Şahlar Əsgərov qeyd edib ki, məktəb cəmiyyətin bir hissəsi olduğu üçün cəmiyyətdə baş verənlərin ora təsirsiz ötüşməsi mümkünsüzdür: “Biz ən yaxşısı onlar arasında əlaqələri axtarıb tapmalıyıq. Çünki məktəb də, ailə də, cəmiyyətdə tərbiyəçi roluna malikdir. Ümumiyyətlə, şagirdlərin pis vərdişləri gələcəkdə bəşəriyyət üçün böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan da bəşəriyyətin bir parçası olduğu üçün problemin qarşısını almaq üçün tədbirlər görülməlidir. Problemə qarşı mübarizə üçün orta məktəblərdə proqram çərçivəsində dərslər keçirilməlidir. İlk növbədə narkotiklə



mübarizə aparanda onun son nəticəsinin - insanlara necə təsir etməsini göstərmək lazımdır. Bunu ya film, ya bədii əsər, ya da videoçarx şəklində şagirdlərə təqdim etmək olar. Elə bilirəm ki, problemi nəticəsindən başlayıb göstərmək lazımdır. “Hara aparır?” sualı çətindir. Yalnız problem hara aparandan sonra nələr baş verir - burdan başlayıb cəmiyyətin bütün yaradıcı üzvlərini, yazıçıları, televiziya işçilərini bu işə yönəltmək lazımdır”.

### “Şagirdlərin yanlış hərəkətinə görə məsuliyyəti ilk növbədə valideynlər daşıyır”

Təhsil üzrə ekspert Etibar Əliyev söyləyib ki, uşaqların yanlış hərəkətinə görə, məsuliyyəti ilk növbədə valideynlər daşıyırsa, ikinci növbədə bu məsuliyyət məktəblərin üzərinə düşür: “ Məktəbin mühüm funksiyalarından biri tərbiyədir. Əvvəllər məktəbdə müəllimlər, məktəb rəhbərliyi tərbiyəni heç zaman dərsdən ayırmayıblar. Tərbiyə və təhsil bir-biri ilə sıx şəkildə bağlı olub. Ailə ilə məktəb güclü olsa şagirdlərdə neqativ hallara qarşı immunitet yarana bilər ki, bu da uşaqların pis davranış və vərdişlərə



meyillənmənin qarşısını ala bilər”.

### “Müəllimlər tərbiyə işini həyata keçirmirlər”

Onun sözlərinə görə, məktəblərdə baş verənlərlə bağlı cəmiyyətin də üzərinə pay düşür: “Amma bütün hallarda bu gün bəzi müəllimlər tərbiyə işini həyata keçirmirlər. Onlar həm məktəbdə, həm məktəb ərazisində, həm də küçədə uşaqlara nəzarət etməlidirlər. Əvvəllər hər hansı uşağın əlində tütün məmulatı və ya nalayiq hərəkət görəndə bununla bağlı valideyn, eləcə də məktəb pedaqoji şurasının iclasları keçirilərdi. İndi belə halların sayı sanki azalıb”.

### “Məktəblərdə neqativ halların sayı çoxala bilər”

Orta məktəb sahəsində ciddi islahatların keçirildiyini deyən E. Əliyev söyləyib ki, müəllimlərin peşəkarlığına xüsusi önəm verilir: “ Bunlarla yanaşı tərbiyə faktoruna da önəm verilməlidir. Müəllim peşəsinin əsas çətinliklərindən biri dərs keçməklə yanaşı onun tərbiyə verməsidir. Əgər təkcə dərs vermək olsa idi, müəllim peşəsi ən sadə peşə sayılardı. Təsadüfi deyil ki, İmmanuil Kant iki böyük sənəti ən çətini adlandırıb ki, onlardan biri idarəetmə və tərbiyə etmə sənətidir. Ona görə də məktəblər tərbiyə faktorunu kənara atmamalıdırlar. Əks halda, məktəblərdə bu cür neqativ halların sayı çoxala bilər”.

### “Ciddi maarifləndirici tədbirlər həyata keçirilməlidir”

Ekspert söyləyib ki, məktəblilərin zərərli vərdişlərə aludəçiliyinin qarşısının alınması üçün təhsil ocaqlarında fəaliyyət göstərən həkimlər mütəmadi olaraq şagirdləri müayinə etməlidirlər: “ Nədənsə yalnız neqativ hal aşkar edildikdə hər hansı ölçü götürülməyə başlanır. Uşaqların zərərli vərdişlərdən yayınması üçün profilaktik işlər görülməli, çox ciddi maarifləndirici tədbirlər həyata keçirilməlidir. Məktəblərdə fəaliyyət göstərən psixoloqlar uşaqlarla mütəmadi olaraq ünsiyyətdə olmalı, onlara təsir edən faktorların qarşısını almağa çalışmalıdırlar. Bu istiqamətdə işlər gücləndirilməlidir “.

### Bəs psixoloqlar nə deyir?

Bakı şəhəri üzrə Təhsil İdarəsi nəzdində fəaliyyət göstərən Təlimə Dəstək Mərkəzinin psixoloqu, metodisti Səidə Əhmədova bildirib ki, hazırkı dövrün uşaqları əvvəlkilərlə hər tərəfli şəkildə fərqlənir: “Əgər əvvəllər uşaqlar yalnız ev və dərslə kifayətlənirdilər-



sə, hazırda uşaqlar sosial şəbəkələrə, internetə çox açıqdırlar. Gün ərzində uşaqlar saatlarla kompüter arxasında oturur, internetdən istifadə edirlər. Ən pisi odur ki, insan daha çox ona qadağa qoyulana meyil edir. Belə olan halda, uşaqlar pis vərdişlərə meyillənir və neqativ hərəkətlərə yol verirlər. Məhz bunların nəticəsidir ki, son dövrlərdə məktəblərdə şagirdlərlə bağlı neqativ halların sayı da artıb”.

### “Məktəblərdə neqativ halların qarşısının alınmasında psixoloqun rolu böyükdür”

Psixoloqun sözlərinə görə, məktəblərdə neqativ halların qarşısının alınmasında psixoloqun rolu böyükdür: “Düzdür sinif rəhbərləri məktəblərdə uşaqların yanında olub, onların vəziyyəti ilə yaxından maraqlanırlar. Amma müəllimlər onlarla necə işləməyi lazım bilə bilməzlər. Psixoloqlar problemli uşaqlara yanaşma tərzini müəllimlərdən daha yaxşı bilirlər. Psixoloqların işi məktəblərdən deyil, məktəbəqədər hazırlıqdan başlamalıdır. Psixoloqlar təkcə uşaqlarla deyil, eyni zamanda müəllim və valideynlərlə də çalışmalıdır “.

S. Əhmədova qeyd edib ki, məktəblərdə risk qrupuna adi və çətin tərbiyə olunan uşaqlarla diaqnostik, inkişaf etdirici iş və ümumiyyətlə 5 istiqamətdə işlər aparılmalıdır: “Bura psixoprofilaktika, psixokonsultasiya, psixokorreksiya, psixoloji maarifləndirmə və psixodiaqnostika daxildir. Psixoloqlar məktəblərdə neqativ halların qarşısının alınması istiqamətində həm də müəllimlərlə master-klasslar keçməlidir”.

### “Psixoloqlar şagirdlərin şəxsi inkişafında yaranan qüsurların aradan qaldırılmasında yardım etməlidir”

Ümumrusiya Professional Psixoterapiya Liqasının Həqiqi üzvü psixoloq Səbinə Bayramova deyib ki, məktəblərdə psixoloqlar şagirdlərin təlim tərbiyəsində yaranan çətinliklərlə yanaşı, onların şəxsi inkişafında yaranan qüsurların aradan qaldırılmasında, sağlam şəxsiyyət kimi formalaşmasında pedaqoji kollektivə yardım etməlidir: “Psixoloqun məktəblərdəki fəaliyyəti bir neçə vəzifə və hissəyə bölünür. Belə ki, onlar ilk növbədə psixoprofilaktika işləri həyata keçirməli, bunlarla yanaşı, valideynlərlə birlikdə çalışmalıdırlar. Məktəb psixoloqları şagirdlərin bütün yaş dövrləri müddətində onların yanında olmalı, yetkinlik yaşına çatan uşaqlarla fəaliyyətdə daha ehtiyatlı davranmalı, bu yaş dövründə üzə çıxan nöqsanların araşdırılıb üzə çıxmasına və qarşısının alınmasına yardım etməlidir”.



### “Məktəb psixoloqlarının sayının artırılması neqativ hallara qarşı mübarizədə müsbət rol oynaya bilər”

Psixoloq söyləyib ki, məktəbdə hər bir şagirdə probleminə uyğun olaraq fərdi yanaşılmalıdır: “Məktəb psixoloqları hətta müəllimlərə bu cür uşaqlara yanaşma ilə bağlı məsləhətlər verməlidir. Bu fəaliyyətlə yanaşı psixoloq həm də ailələrlə işləməlidir. Ümumilikdə məktəb psixoloqlarının fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Amma bir psixoloq məktəblərə yetərli deyil. Çünki, 1 nəfər kifayət qədər yardım göstərə bilməz. Məktəblərdə hər yaş kateqoriyası üzrə psixoloqlar fəaliyyət göstərməlidir. Məktəblərdə psixoloq sayının artırılması, məktəblərdə neqativ hallara qarşı aparılan mübarizədə müsbət nəticəyə səbəb ola bilər”.

***Nailə Məhərrəmova***

# “Paşinyan sərsəm bəyanatlar verir”

## Tahir Rzayev: *“Vəziyyət kəskinləşsə, Ermənistanda vətəndaş müharibəsi baş verəcək”*

***- Tahir müəllim, Ermənistanda ictimai-siyasi vəziyyətin gərginləşməsi nəticə etibarı ilə Nikol Paşinyanın baş nazirlikdən getməsinə aparıb çıxara bilərmi?***

- Paşinyanın istər daxildə, istərsə də xarici aləmdə mövqeləri sarsılmaqdadır. Onun ölkəni idarə etmək bacarığı yoxdur, beynəlxalq məsələlərin həllində yetkin deyil. Çünki Paşinyan sərsəm bəyanatlar verir. Bu bəyanatlar nə beynəlxalq hüquq normalarına uyğundur, nə də daxili münaqişənin aradan qaldırılmasına və ölkədə sabitliyin bərpa olunmasına uyğundur. Ona görə də, Paşinyan indi çıxılmaz duruma düşüb. Paşinyan mitinqlər təşkil etməklə, müəyyən qədər dividend qazanmağa ümid bəsləyir ki, bəlkə xalq onu müdafiə etdi. Artıq o vaxtlar keçib. İndi erməni erməni olsa da, dərk edir ki, Paşinyan bu dövləti idarə edə bilməz. Çünki o, avantüristdir və düşmənçilik mövqeyi tutan sərsəmdir. Bir sözlə, erməni xalqı istəyir ki, sakit və müharibəsiz yaşasın. Bu siyasəti başa düşən adamlar bilirlər ki, bu müharibənin axırı yoxdur. Ancaq bu adamlar və əvvəlkilər Qarabağ kartı ilə hakimiyyətə gəlmişdilər. Onlar, özləri üçün ucuz da olsa, siyasi dividend qazanmışdılar. Müəyyən sayda erməniləri də ələ almışdılar.



Müsahibimiz millət vəkili Tahir Rzayevdir

***- Sizcə, ermənilər mövcud reallığı dərk edə bilirlərmi?***

- İndi erməni xalqı görür ki, Paşinyanlar onları uçuruma aparır. Silah və güc yolu ilə bunlar Qarabağı əldə saxlaya bilməyəcəklər və bu, Ermənistana çox böyük ziyanlar gətirəcək. İstər Ermənistanın iqtisadiyyatına, istərsə də beynəlxalq aləmə ciddi zərbələr vururlar. Gözləyirdilər ki, Paşinyan gələndən sonra bu məsələlər bir qaydaya düşər. Ancaq bu gəldi və əvvəlkilərdən də pis və yaramaz yol tutdu. Artıq buna erməni xalqı inanmır. Ona görə də, ölkədə Paşinyanın əleyhinə müəyyən mənfi münasibətlər var ki, o, hakimiyyətdən getməli və hakimiyyətə sağlam adam gəlməlidir. Artıq Paşinyanın tərəfdarlarının sayı xeyli azalıb. Ona görə də, bunun qarşısını müəyyən qaydada almaqdan ötrü Paşinyan mitinqlər təşkil edir. Bununla da, belə bir fikir formalaşdırmağa çalışır ki, guya erməni xalqı bunu istəyir ona görə də, onlar bunun müdafiəsinə tam qalxıblar. Əslində isə, belə deyil. Yəni bunun əksinədir. Artıq erməni xalqı Paşinyanı dəstəkləmir. Az bir müddətdə Paşinyan hakimiyyətdən gedəsidir.

***- Hakimiyyət böhranı bu ölkədə vətəndaş müharibəsinə gətirib çıxara bilərmi?***

- Əlbəttə ki, vətəndaş müharibəsi baş verə bilər. Çünki işğalçı ölkədə zora üstünlük verən, qədarlıqları ilə seçilən, Qarabağda azərbaycanlılara qarşı kütləvi qətliamlar həyata keçirən prezidentlər olub. Əgər onlar, doğrudan da, ağıllı siyasi yol tutsaydılar, bilərdilər ki, Qarabağ Azərbaycanın tərkib hissədir. Beləliklə də, münaqişə həll yoluna düşərdi. Ancaq Koçaryan və Sarkisyan Qarabağ kartı ilə hakimiyyətə gəlmişdilər. Onlar beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmədilər. Qarabağ probleminin həlli ilə əlaqədar BMT qətnamələri və digər beynəlxalq təşkilatların qərarları mövcuddur. Bu gün kim müharibə istəyir? Heç kəs, erməni xalqı da müharibə istəmir. Ancaq bu gün onlar həm bir müharibəyə cəlb olunublar, həm də ac-yalavac halında və səfalət içərisinnədir. Paşinyan xalq arasında özünə rəğbət qazanmaqdan ötrü keçmiş rəhbərliyi təftiş edir, onların törətdiklərı cinayətlərini aşkarlamaqla, özünə xal qazanmaq istəyir. Ancaq sözsüz ki, onların da tərəfdarları var. Beynəlxalq dairələrdə də, bunların müəyyən dərəcədə tərəfdarları var.

***- Paşinyan rəqiblərini sıradan çıxartmaqdadır. Bununla da, planlarını həyata keçirə biləcəkmi?***

- Bəli, fakt budur ki, Koçaryan və Sarkisyan Paşinyana qarşı müəyyən tədbirlər görməkdədirlər. Bunu görən Paşinyan onları zərərsizləşdirməyə və sıradan çıxarmağa çalışır. Əgər vəziyyət kəskinləşsə, Ermənistanda vətəndaş müharibəsi baş verəcək. Ermənilər bir-birinə qarşı silah çəkməkdən və öldürməkdən belə çəkinməyəcəklər. Biz bunu Koçaryan və Sarkisyanın dövründə görmüşük ki, orada mitinqləri necə yatırıblar. Seçkilər ərəfəsində onlar insanlara necə zülm ediblər. Onlar hakimiyyətdə qalmaqdan ötrü hər bir vasitəyə əl atmağa hazır olan adamlardır. Koçaryanlar, Paşinyanlar və Sarkisyanlar erməni xalqını istəmirlər, onlar erməni xalqının bədbəxtliyi üzərində özlərinə xoşbəxtlik yaratmaq istəyən adamlardır.

**GÜLYANƏ**

# “Niyə həmsədr dövlətlər Paşinyana bir reaksiya vermir?”



“Ermənistan özü demokratik dövlət deyil ki, orada demokratiyadan, ədalətdən danışılsın. Ermənistan cinayətkar bir rejim var. Orada daim cinayətkar rejim olub”. Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib. Onun sözlərinə görə, təəssüflər olsun ki, cinayətkarlar bu fikirlərindən daşınmırlar: “İşğalçı ölkə hələ də uydurma soyqırımı ideyasından əl çəkmir. Bu gün onlar Xocalı kimi soyqırımı törədiblər. Bununla bağlı bütün faktlar, videolar ortadadır. Hətta bunu Sarkisyan, Balayan, Koçaryan özü etiraf edib. Bu boyda soyqırımı törədənlər indi özləri soyqırıma məruz qalmış kimi göstərirlər və ərazi iddiaları irəli sürürlər. Ermənistan Rusiya dövlətinin forpostu olub. Ermənistan bütün beynəlxalq layihələrdən kənarda qalıb. Bu gün Ermənistanda əhaliyə heç bir haqq verilməyib. Dünya birliyinin yanaşması təəccüb doğurur ki, niyə ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri Paşinyana heç bir reaksiya vermir? Paşinyan öz oğlunu cəbhəyə yolladı və bu yolverilməz idi. Bu bir daha Ermənistanın işğalçılıq siyasətini göstərir. Paşinyanın ömrü uzun olmayacaq. Bütün dünya görür ki, Ermənistan hələ dövlət qura bilmir”.

## Bakı Caz Festivalı soul musiqisinin ustadı Omar Lye-fukun möhtəşəm konserti ilə açılacaq

Oktyabrın 14-də Bakı Caz Festivalı soul musiqisinin və fankın ustadı Omar Lye-fukun möhtəşəm konserti ilə açılacaq. AZƏRTAC xəbər verir ki, həmin gün musiqiçi “Elektra Events Hall”da özünün 50 illik yubileyini də qeyd edəcək. Xatırladaq ki, Mədəniyyət Nazirliyi və “Jazz Dünyası” jurnalının dəstəyi ilə təşkil olunacaq festival oktyabrın 28-dək davam edəcək. Festival günlərində caz musiqisinin ustadlarının peşəkar konsertləri 14 gün müddətində həm təcrübəli intellektual dinləyicilər, həm də dinamik musiqi həvəskarları üçün mənəvi qida olacaq.

# Ermənistanda siyasi gərginlik artır

Ermənistanda siyasi gərginlik getdikcə daha da artır. Nikol Paşinyan hökumətinə qarşı müxalif qüvvələr səfərbər olublar. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistanda iş adamı kimi tanınan “Çiçəklənən Ermənistan” partiyasının sədri Qaqik Sarukyan yeni hökumətə qarşı ittifaq yaradır. O, parlamentdə təmsil olunmayan siyasi qüvvələrlə yaxın zamanlarda danışıqlara başlayacağını açıqlayıb. Ermənistanın “Jamanak” qəzetinin məlumatına görə, danışıqlarda məqsəd növbədənkənar parlament seçkilərində vahid blokla iştirak etməkdir. Siyasi bloka “İrs” partiyası, Erməni Milli Konqresi və digər kiçik partiyaların, eləcə də Andreas Qukasyan, Samvel Babayan, Seyran Ohanyanın daxil olacağı gözlənilir.

Erməni mətbuatında qeyd olunur ki, Sarukyan, həmçinin yeni yaradılan “Sasna srer” partiyasına da əməkdaşlıq təklif edəcək. Bu partiyanın üzvləri iki il əvvəl Erebuni rayonunda post-patrul alayına hücuma görə saxlanılan silahlı qruplaşmanın üzvləridir və məhz Qakik Sarukyanın təqdim etdiyi pul girovunun müqabilində həbsxanadan çıxa biliblər. Siyasi ekspertlər hesab edirlər ki, Paşinyana qarşı yaradılan cəbhə onun parlament seçkilərində qalib gəlməsini şübhə altına alır. Təhlükəsizlik Xidməti isə keçmiş deputat Levon Sarkisyanı həbs edib. O, 2008-ci ilin oktyabrında Ermənistan Dövlət Gömrük Komitəsinin keçmiş başçısı Armen Avetsyanın malikanəsinə silahlı hücumda təqsirli bilinir.



Xatırladaq ki, “Ayaqqabı şəhəri” Açıq Səhmdar Cəmiyyətinin təsisçisi Ara Karapetyan və İrəvanın Nor-Nork rayonunun keçmiş polis rəisi Armen Nikoqosyanın yaratdığı bandit dəstəsinin 10 üzvü bu cinayətə görə 2011-ci ilin mayında 15 il müddətinədək azadlıqdan məhrum edilib. İlkin məlumata görə, basqının sifarişçisi keçmiş deputat Levon Sarkisyan olub. Cinayətdən sonra Levon Sarkisyan oğurlanan qızıl-zinət əşyalarını və bahalı saatları qarətçilərin əlindən alıb. Keçmiş deputatın malikanəsi və mənzilində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində xeyli sayda silah-sursat, o cümlədən “AK-74” avtomatı, qumbara və qumbaraatan, 4000 müxtəlif çaplı güllə aşkarlanıb.

# Film və seriallarda Azərbaycan dilinin saflığının qorunması müzakirə olundu



Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Azadlıq Hərəkatçıları” İctimai Birliyinin həyata keçirdiy “Bədii filmlərdə və teleseriallarda Azərbaycan dilinin saflığının qorunması” layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən konfransda layihənin yekunları ətraflı təhlil edilmiş, mövcud qüsurlar, onların aradan qaldırılması yolları geniş müzakirə olunmuşdur. Konfransı giriş sözü ilə açan layihənin rəhbəri, “Azadlıq Hərəkatçıları” İctimai Birliyinin sədri Təhmasib Novruzov layihənin icrası zamanı aparılan araşdırmalar, onun nəticələri barədə qısa məlumat verərək, bu istiqamətdə layihələrin əhəmiyyətindən, Azərbaycan Respublikası Prezidentinin 2013-cü ilin aprelində imzaladığı “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nin həyata keçməsində vətəndaş cəmiyyətinin rolundan danışdı. Layihə çərçivəsində SƏS TV-də istehsal edilmiş “Kinomuz və dilimiz” sənədli filminin nümayişi bu sahədə qüsurların ciddiliyini bir daha göstərdi. Filmin nümayişindən sonra layihənin ekspert qrupunun rəhbəri, AMEA Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Sevinc Əliyevanın məruzəsi dinlənildi. Konfransda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya elmləri doktoru, Azərbaycan Dövlət Dil



Komissiyasının üzvü Buludxan Xəlilov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Respublikanın xalq artisti Azad Şükür, Azərbaycan Kino Birliyinin sədri Müşfiq Hətəmov, kinorejissor Ayaz Salayev, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin əməkdaşı Gülsəba Baxşəliyeva, Əməkdar İncəsənət Xadimi, kinorejissor Əbdül Mahmudbəyli, Respublikanın Xalq artistləri Ofelya Sənani, Eldost Bayram, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli, tarixçi-araşdırmaçı Əkrəm Bəydəmirli və başqaları Azərbaycan dilinin saflığının qorunmasına bütün cəmiyyətin ciddi yanaşmalı olduğu, film və serial müəlliflərinin bu sahədə mövcud olan qüsurları aradan qaldırılması işinə məsuliyyətlə yanaşmalarının vacibliyini qeyd etdilər. Konfransda ADPU-nun filologiya fakültəsinin tələbəsi Aysu Əsədovanın ifasında Bəxtiyar Vahabzadənin “Ana dili” şeiri ifa olundu.

# Sərsəm baş nazirin sərsəm arvadı

## *Sülh çağırışı edən oğlunu Qarabağa göndərməzdi*



***Məlum olduğu kimi, oktyabrın 8-də Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan bir qrup rusiyalı qadın ictimai xadimlə birlikdə Azərbaycanın işğal altındakı ərazilərinə - qoşunların təmas xəttinə gəlib.***

Anna Akopyan bu səfəri özünün "Qadınlar sülh naminə" sülhməramlı təşəbbüsü çərçivəsində təşkil edib. O, təmas xəttində Qarabağ münaqişəsinin tərəflərinə müraciətlə sülhə çağırış edib. A.Akopyanın təşəbbüsünə Rusiyadan qadın siyasi-ictimai xadimlər, həkimlər, yazıçılar və digərləri qatılıb. Sülh təşəbbüsü ilə təmas xəttinə gələn qadınları qondarma "DQR"in müdafiə naziri Levon Mnatsakanyan və "prezident" Bako Saakyan da müşayiət ediblər.

Qeyd edək ki, Azərbaycan XİN, hələ bu barədə təşəbbüslər yenicə səslənən zaman, etiraz bəyanatını səsləndirmişdi. Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan baş nazirinin həyat yoldaşının irəli sürdüyü "Qadınlar sülh naminə" təşəbbüsü və bu çərçivədə Rusiyadan bir qrup qadının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfər etmək niyyəti ilə bağlı etiraz açıqlamasını yaymışdı. XİN-in yaydığı açıqlamada bildirilirdi: "Guya bu təşəbbüsün əsas məqsədi gənc əsgərlərin və günahsız insanların ölümünün qarşısını almaqdır. O zaman məsələyə köklü şəkildə yanaşmaq və "Ermənistan əsgərlərinin Azərbaycanın torpaqlarında nə işi var?" sualına cavab vermək lazımdır. A.Akopyan humanitar missiyası üçün hədəfləri düzgün seçməyib, gənc insanların ölümünün qarşısını almaq üçün o, ilk növbədə, Ermənistan cəmiyyətindən başlamalı, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoymağa çağırmalı və erməni qadınlarını və analarını övladlarını Azərbaycanın işğal olunmuş torpaqlarına göndərməkdən çəkindirməlidir.

A.Akopyan "sülhpərvər addım" adlandırdığı bu təşəbbüsə Qarabağ separatçılarının lideri, başkəsən B.Saakyanı da qoşub. Bununla da, o, atdığı addımlarda səmimi olmadığını nümayiş etdirib. Üstəlik, əgər o, sülh niyyətli qadın olsaydı, ilk öncə, işğal altındakı ərazilərdə hərbi xidmət keçən oğlunu geri qaytarmağı israrla ərindən tələb edərdi.

### Novella Cəfəroğlu: "Paşinyanın həyat yoldaşı təcavüzkar Ermənistanın sülhsevər imicini yaratmaq ssenarisini oynayır"

Sözügedən məsələ ilə bağlı Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu bildirib ki, Akopyanın bu təşəbbüsü onların da etirazına səbəb olub: "Biz etirazımızı yazmışıq, hamımız da imzalamışıq. Rusiyalı qadınlara da məktub yazıb, Peterburqa göndərmişik ki, siz Konvensiyanı, beynəlxalq hüquqları pozursunuz. Çünki bu ərazi Azərbaycan ərazisidir. Təbii ki, o ərazilərə gedə bilərsiniz, amma Azərbaycan ərazilərindən təmas xəttini keçməklə, Ermənistandan yox".

N.Cəfəroğlu bildirib ki, Rusiya XİN-ə də rəsmi etiraz göndəriblər: "Biz bu etirazları Azərbaycan-Ermənistan Sülh Platforması adından göndərmişik. Həm də Qadın Hüquqları Müdafiə Cəmiyyəti ayrıca etiraz məktubları hazırlayır".

N.Cəfəroğlu, onu da qeyd edib ki, bu addım sülh çağırışından çox, təxribatçı hərəkətdir: "Bu, həm bizim hissiyyatımıza toxunan hərəkətdir. Həm də, sən necə sülh istəyirsən ki, özün münaqişə törədirsən? Sülh istəyən şəxs münaqişə yaradar?! Sülh istədiyini deyən xanım özü nifaq salır, özü də münaqişə yaradır. Bir də sülh istəyən qadın, ilk öncə, deyər ki, bəli, biz bu torpaqları işğal etmişik, ancaq sülh istəyirik. Ona görə də, deyər gəlin birtəhər danışaq, bəlkə kompromisə getdik. İstənilən halda, sən mənim ərazi bütövlüyümə hörmət etməlisən. Qafqazda sülh olmalıdır, istəsək də, istəməsək də. Ermənilər çox şeyi itirdilər, pis vəziyyətdədirlər".

### Aydın Quliyev: "Anna Akopyan təcavüzkar Ermənistanın sülhsevər imicini yaratmaq ssenarisi oynayır"

"Bakı Xəbər" qəzetinin baş redaktoru, Aydın Quliyev sözügedən məsələyə münasibət bildirərək qeyd edib ki, Ermənistanın "məxməri inqilab"dan sonrakı siyasi elitasının fəaliyyətində populizm mütləq üstünlük təşkil etməyə başlayır: "Sarkisyanın dövründə nadir hallarda rast gəlinən bu siyasi davranış forması Paşinyanın dövründə sistem halını almaqdadır. Paşinyan hakimiyyətin bir hissəsini ictimai təzyiq dalğası altında ələ keçirdi, sonra konkret işlər görməyin mümkünsüzlüyünü anlayanda populist siyasət kursunu daha da gücləndirdi. Ən sonda isə oğlunu işğal edilmiş Azərbaycan torpaqlarında yaradılmış qanunsuz rejimin hərbi xidmətinə göndərdi və bunu erməni cəmiyyətinə ən müasir vətənpərvərlik nümunəsi kimi təqdim etməyə çalışdı. Paşinyan bu taktika ilə, nələrsə əldə edə bilsə də, erməni xalqının, hələlik, nəsə əldə edə bildiyini söyləmək mümkünsüzdür".

Ekspert qeyd edib ki, A.Akopyanın Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə gələrək, məqsədi və ünvanı bəlli olmayan sülh çağırışı etməsi yeni erməni siyasi elitasının genişlənməkdə olan populist siyasətinin davamıdır: "A.Akopyan Rusiyadan da şəxsi tanışlıq çərçivəsində cəlb etdiyi bir qrup qadını "sülh müssiyası" adı ilə Dağlıq Qarabağa gətirsə də, bu missiyanın mahiyyəti sülh pərdəsinə bürünmüş təcavüzün yeni formasıdır. Nəhayət, Akopyan bilməmiş deyil ki, erməni analarına daha konkret sülh çağırışını ilk dəfə 2017-ci ilin əvvəlində Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva edib. Akopyan məntiqsiz yeni çağırış etmək əvəzində Mehriban Əliyevanın erməni analarına "oğullarınızı Azərbaycan torpaqlarına hərbi xidmətə göndərməkdən çəkinin" məzmunlu çağırışına uyğun hərəkət etsəydi, azacıq sülhpərvər görünə bilərdi. Göründüyü kimi, Paşinyan Ermənistanı dünyaya demokratik təqdim etmək ssenarisini oynadığı kimi, Akopyan da təcavüzkar Ermənistanın sülhsevər imicini yaratmaq ssenarisini oynayır".

### Qabil Hüseynli: "Anna Akopyanın bu cür çıxışlarının arxasında siyasi riyakarlıq dayanır"

Politoloq Qabil Hüseynli isə hesab edir ki, Anna Akopyanın bu cür çıxışları siyasi artistizmdən başqa bir şey deyil. "Bu məsələnin arxasında siyasi riyakarlıq dayanır"- deyə qeyd edən politoloqa görə, Anna Akopyan, əslində, bu kimi vasitəylə Ermənistanın işğalçılıq siyasətini dünya ictimai rəyindən azdırmağa çalışır. Bu, xüsusilə, MDB məkanında siyasi-ictimai fikri azdıraraq, çaşdırmaqdır. Onlar bu yollarla guya ermənilərin sülhpərvər olması haqqında yalançı obrazlar formalaşdırmağa çalışırlar".

Q.Hüseynli, eyni zamanda, bildirib ki, Azərbaycanın öz torpağını işğaldan azad etməyə kifayət qədər gücü var: "Yəni Azərbaycan öz ərazi bütövlüyünü təmin etməyə qadirdir. Əlbəttə, biz istəyirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh danışıqları yolu ilə həll olunsun. Ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tezliklə tapar və öz yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlər öz ev-eşiyinə qayıdarlar".

Q.Hüseynli daha sonra deyib: "Sarkisyanın dövründə nadir hallarda rast gəlinən bu siyasi davranış forması Paşinyanın dövründə sistem halını almaqdadır. Paşinyan hakimiyyətin bir hissəsini ictimai təzyiq dalğası altında ələ keçirdi, sonra konkret işlər görməyin mümkünsüzlüyünü anlayanda, populist siyasət kursunu daha da gücləndirdi. Ən sonda isə, oğlunu işğal edilmiş Azərbaycan torpaqlarında yaradılmış qanunsuz rejimin hərbi xidmətinə göndərdi və bunu erməni cəmiyyətinə ən müasir vətənpərvərlik nümunəsi kimi təqdim etməyə çalışdı. Paşinyan bu taktika ilə nəsə əldə edə bilsə də, erməni xalqının, hələlik, nəsə əldə edə bildiyini söyləmək, mümkünsüzdür".

Göründüyü kimi, sərsəm baş nazirin arvadı da sərsəm olmalıdır.

**R.HÜSEYNOVA**

# "Uzağı 4-5 saata işi bitirəcəklər"

*Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir*



***- Elşən müəllim, Ermənistanda Paşinyan tərəfdarları parlament binasını mühasirəyə alaraq, kütləvi aksiyalara başlayıblar. Paşinyan daha nə istəyir?***

- Parlament Paşinyanın əsas hədəflərindən biridir. Çünki həmin parlament 80 faiz etibarilə Sarkisyanın adamlarından ibarətdir. Hakimiyyətə gəlişi fors-major durumda və qəfil baş verdiyi üçün Paşinyan qısa müddətdə bir parlamenti, bir də "Qarabağ klanı"nı zərərsizləşdirə bilmədi. Ona görə də, indi təcili hərəkətə keçib və parlamenti özününküləşdirmək istəyir. Bacaracaqmı? - Şəxsən mən inanmıram. Ermənistan növbəti xaosun astanasındadır. Artıq bunun ilkin işartıları açıqca görünür. Paşinyanın arzusu və məqsədi bütün siyasi rəqibləri həbsə ataraq alternativsiz və siyasi rəqibsiz hökmranlıq qurmaqdır. Bunu bəlkə də ilkin mərhələdə edə bilərdi. Üsyan başlayan vaxt. İndi isə artıq gecdir. Çünki çox qısa müddətdə özünün nə qədər istedadsız və perspektivsiz siyasətçi olduğunu sübut elədi. Mən bildiyim qədər hazırda onun xalq arasında reytinqi 23, 5 faizdir. Yəni 5 ay əvvəlki müddətlə müqayisədə, düz 50 faiz aşağı. Belə bir durumda isə parlamenti islah etmək real görünmür.

***- Baş nazirlə Koçaryan, Sarkisyan arasında qarşıdurma nəticə etibarı ilə bu ölkədə vətəndaş müharibəsinə gətirib çıxara bilərmi?***

- Söhbət bir tək Koçaryan və Sarkisyandan getmir. Onlara ünvanlanan həbs şantajı, əslində, cəmiyyətin nəbzini, impulsunu yoxlamaq cəhdidir ki, görsün xalqın reaksiyası necədir. Sakitlik olsa, təbii ki, hər ikisini həbs edəcək və vətəndaş qarşıdurması da olmayacaq. Yox, əgər görsə ki, vəziyyət hesabladığı kimi getmir, dayanacaq. Paşinyan o cəsarətin sahibi deyil ki, istədiyini edə bilsin. Düzdür, pafos yetərincədir, amma adamın realizə gücü də sıfırın altındadır. Bəli. Vətəndaş müharibəsi Ermənistanda olacaq. Mütləq olacaq. Çox yaxında. Amma həbs məqsədilə yox, Paşinyanın ardıcıl uğursuzluqlarının nəticəsi olaraq baş verəcək. Dediyim kimi, Ermənistan açıq xaosa gedir. Hər gün bu, daha aydın görünür. Çünki anarxiya, hüquqi nihilizm, kütləvi itaətsizlik ən yüksək həddə çatıb. Təbii ki, vəziyyətin bu mərhələyə qədər irəliləməsində onun rəqiblərinin də rolu az deyil. Elə ən çox da ona görə Sarkisyan və Koçaryana qıcıqlanırlar. İmkanı olsa onları ayaqlarından asar, amma heç həbs etməyə də cəsarəti çatmır.

***- Ermənistanda vətəndaş qarşıdurmasının baş verməsi Dağlıq Qarabağda tez-tez təxribatların və atəşkəsin pozulmasına gətirib çıxara bilərmi?***

- Ermənistanda vətəndaş müharibəsi başlasa, Dağlıq Qarabağda qarışıqlıq yaratmaqda ən çox Paşinyan maraqlı olacaq ki, əlində bəhanə olsun və guya milli maraqlar naminə, camaatı sakitləşdirsin. Amma bir məsələ də var: Aprel döyüşlərindən sonra ermənilərin gözü əməllicə qorxub. Anlayırlar ki, Azərbaycanla bu variantlar keçməz, çünki nəticə acı ola bilər. Aprel döyüşlərində ordumuz erməni separatçılarına elə dağ çəkib ki, çox güman, hələ 10 illər boyunca həmin döyüşdəki itkilər və aldıqları yaralar yadlarından çıxmayacaq. Ona görə də, sərhəddə hər hansı təxribat olsa, bu, Ermənistan üçün ikiqat təhlükə hesab oluna bilər. Paşinyan da bunu anlayır və hətta imitasiya xətrinə də olsa, risk etməyəcək. Amma bir fikri bölüşüm: Ermənistanda xaos dərinləşsə, Paşinyanın gedişi Sarkisyan qədər uzun çəkməyəcək. Uzağı, 4-5 saata işi bitirəcəklər. Çünki qeyri-adi qarışıqlıq yaranacaq və bu dəfə hakimiyyət iddiasını artıq bir deyil, bir neçə qüvvə ortalığa qoyacaq. Yəni başları tam özlərinə qarışacaq. Ona görə də, narahat olmağa dəyməz. Azərbaycanın milli ordusu bütün təxribatların qarşısını almağa qadirdir və hər şey nəzarətdədir.

**GÜLYANƏ**

# Enerji infrastrukturunda mühüm nailiyyətlər əldə olunub

***Bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətləri sırasında öncül yerlərdən birini tutur. Dünya iqtisadi siferasına uğurla inteqrasiya edən Azərbaycan beynəlxalq münasibətlər sistemində milli iqtisadi inkişaf modelinə malik olan ölkə kimi tanınır. Təsadüfi deyil ki, bu gün Azərbaycanın dayanıqlı inkişafından bəhs edərkən bütün sahələrin paralel tərəqqisi məsələsinə diqqət yetirilir və bu, pozitiv tendensiya kimi səciyyələndirilir. Söz yox ki, bütün sahələrdə olduğu kimi, elektroenergetika sisteminin inkişafında da uğurlu nailiyyətlər mövcuddur. Bu nailiyyətlərin əldə olunması isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında köklü dəyişikliklərin əsası qoyuldu.***



*Bu gün mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan elektrik enerjisi sahəsində asılı deyildir*

***Ümummilli Lider Heydər Əliyev***

## Tarixin dönüş nöqtəsindən

Elektrik energetikasında sürətli inkişafı təmin etmək məqsədi ilə hələ 1970-80-ci illərdə təxirəsalınmaz tədbirlər həyata keçirildi, bir sıra irimiqyaslı layihələr reallaşdırıldı. Məhz həmin illərdə Dahi Öndər Heydər Əliyev respublikanın elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəməyi qarşıya məqsəd qoyaraq, bu istiqamətdə gərgin fəaliyyət göstərdi. Deməк olar ki, Azərbaycanda enerji təhlükəsizliyi sisteminin təməli həmin illərdə qoyuldu. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu. Ulu Öndər Heydər Əliyev 1970-80-ci illərdə energetika sahəsində gördüyü işlər haqqında sonralar belə deyirdi: "Hər dəfə elektrik stansiyası tikilməsi haqqında SSRİ rəhbərliyi qarşısında məsələ qoyarkən, mənə deyirdilər ki, SSRİ-də vahid elektrik enerjisi sistemi var və Azərbaycana nə qədər elektrik enerjisi istəyirsiniz verək. Mən deyirdim ki, yox, istəyirəm bizim özümüzünkü olsun. Mən istəyirdim ki, müəyyən sahələrdə biz asılı olmayaq. Bu gün mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan elektrik enerjisi sahəsində asılı deyildir. Özü həmin elektrik stansiyalarında elektrik enerjisi istehsal edir".

Bütün bu işləri görməklə Ulu Öndər Heydər Əliyev Azərbaycanın bu gününü əvvəlcədən görürdü və hesab edirdi ki, vaxt gələcək, bu işlər müstəqil Azərbaycan dövlətinə və xalqına xidmət edəcək. Doğrudan da müstəqillik illərində Azərbaycan 1970-80-ci illərdə energetika sahəsində əldə olunan uğurlardan bəhrələndi. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 avqust 2006-cı il tarixli Sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin fəaliyyətini bərpa edilməklə elektrik paylayıcı şəbəkələrdə islahatlara start verilib. Bununla da aparılan yenidənqurma və islahatlar nəticəsində qısa zaman ərzində Bakı şəhərinin işıq problemi həll edildi, zövqsüz və təhlükə mənbəyi olan naqillər dəyişdirildi, yeni yarımstansiyalar inşa edildi. Ötürücülər tələbata uyğunlaşdırılaraq ən müasir texnologiyalarla əvəz edildi. Əhalinin elektrik enerjisinə olan tələbatı yüksək peşəkarlıqla təmin olundu. Bir müddət sonra Bakı gecələri öz keçmiş şöhrətini geri qaytardı, hətta dünyanın ən çil-çıraqban şəhərlərindən biri oldu. Vətənimiz Azərbaycan son on ildə elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrildi. Bakı şəhərində, eləcə də respublikamızda ilk dəfə 110 kV-luq dairəvi elektrik təchizat sistemi yaradılıb, istehlakçıların fasiləsiz, dayanıqlı şəkildə elektrik enerjisi ilə təchizatı təmin edilib.

## Yeni islahatlara və dəyişikliklərə doğru

Elektrik paylayıcı şəbəkələrdə, islahatların növbəti mərhələsi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin adı dəyişdirilərək "Azərişıq" ASC adlandırılmaqla Azərbaycan Respublikası ərazisində (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi "Azərişıq" ASC-yə həvalə edilib. "Azərişıq" ASC yaradıldıqdan sonra regionlardakı elektrik şəbəkələrinin mövcud vəziyyətinin, qısa müddət ərzində, hərtərəfli təhlili aparılıb. Ölkənin sosial-iqtisadi inkişafı strategiyasına və müxtəlif vaxtlarda qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq, istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni təşkil olunan 6 region üzrə 4 hissədən ibarət "İnkişaf və Yenidənqurma Proqramı" hazırlandı. Bu da regionlardakı istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunmasına, kənd təsərrüfatının inkişafı üçün suvarma sistemlərinin elektrik təminatının yenidən qurulmasına, sənaye sahələrinin və turizm obyektlərinin elektrik təchizatının etibarlılığının yüksəldilməsinə gətirib çıxarıb.

Bu müddət ərzində ölkəmizin bütün rayon mərkəzlərində, qəsəbə və kəndlərində yararsız, istismar müddəti başa çatmış transformatorların yenilənməsi-müasir tipli avadanlıqlarla təchiz edilməsi prosesi gedir. İlkin olaraq ölkə üzrə 800 ədəd KTM quraşdırılıb və cari ilin sonuna qədər daha 700-dən yuxarı bu cür məntəqələrin quraşdırılması planlaşdırılıb. Yeni güc mərkəzləri həm görünüşcə əvvəlkindən fərqlənir, həm də böyük texniki üstünlüklərə malik olmaqla yeni, müasir komplekt transformator məntəqələridir. Bu işlərlə yanaşı, uzun illər istismar olunan agac dayaqlar da yeni dəmir boru dayaqlarla əvəzlənir. Açıq tipli, uzun müddət istismarda olduğu üçün yararsız vəziyyətə düşmüş, heç bir standarta uyğun gəlməyən alüminium naqillər özünüdaşıyan (SİP) izolyasiyalı kabellərlə dəyişdirilir. Bu tədbirlər on minlərlə abonentin elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaqla bərabər normadan artıq texnoloji itkilərin azaldılmasına və uçot sisteminin daha təkmil şəkildə aparılmasına müsbət təsir göstərəcək. Coğrafi və iqlim şəraiti nəzərə alınaraq KTM-lərin quraşdırılmasında optimal qərar qəbul olunur. Xüsusi rütubətli ərazilərdə vaqon tipli məntəqələrdən imtina edilərək məxsusi daş binalar tikilir. Bu da güc mərkəzlərinin ömrünü uzatmış olur və keyfiyyətə xidmət edir. Yeni quraşdırılan KTM-lər istehlakçılar üçün yerlərdə etibarlı, təhlükəsiz, dayanıqlı elektrik enerjisinin ötürülməsinə tam təminat verir. Respublikanın paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması vacibliyini ciddi şəkildə dərk edən "Azərişıq" ASC-nin rəhbərliyi 2015-2025-ci illəri əhatə edən fəaliyyət planı hazırlayıb. Əhalinin elektrik enerjisinə olan tələbatın proqnozu çıxarılıb və artan dinamika müəyyənləşdirilib. 2015-ci ildən 2025-ci ilə qədər Azərbaycanda elektrik enerjisinə olan tələbat 7000 MVt-dan 10000 MVt-a qədər artacağı proqnozlaşdırılır.

## Yeni uğurlar və yeni nailiyyətlər əhalinin keyfiyyətli və davamlı elektrik enerjisi ilə təmanıtı deməkdir

"Azərişıq" ASC-in sədri Baba Rzayev qeyd edib ki, ölkədə aparılan islahatlar elektrik təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunması üçün əlverişli şərait yaradıb: "Azərbaycanın müstəqil enerji infrastrukturunun formalaşdırılması, xaricdən enerji asılılığının aradan qaldırılması istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib. Ümumilikdə, ötən 10 ildə "Azərişıq"ın balansındakı paylayıcı elektrik şəbəkələrində 40 ədəd 110 kV-luq yarımstansiya tikilib. Yeni 35 kV-luq yarımstansiyaların sayı isə 141-ə çatır. 2006-2017-ci illərdə 4894 transformator və komplekt transformator məntəqəsi inşa olunub. 577514 dayaq quraşdırılıb, 45818 km uzunluğunda hava və kabel xətti çəkilib. Quraşdırlan yeni tipli elektron sayğacların sayı 1621871-ə çatıb". Regionların elektrik enerjisinə olan tələbatının ödənilməsi və perspektivdə (2020-ci ilə qədər) yaranacaq elektrik yüklərinn qarşılanması üçün mövcud paylayıcı elektrik şəbəkələrinin təmirini və bərpasını, eləcə də yük mərkəzlərində yeni qida mənbələrinin - 35 və 110 kV-luq yarımstansiyaların tikintisini, yeni elektrik verilişi xətlərinin çəkilişini aktuallaşdırıb.

Regionlarda perspektiv və mövcud yükləri nəzərə almaqla 20 ədəd 110 kV-luq, 70 ədəd 35 kV-luq yarımstansiyaların yenidən qurulması və inşası, müxtəlif gücdə 4749 ədəd KTM-nin quraşdırılması, 110;35;10;6 və 0,4 kV-luq elektrik verilişi xətlərinin tikintisi aparılmalıdır. Tədqiq olunan ərazilərdə nəzərdə tutulan elektrik şəbəkələrinin yenidən qurulması, elektrik enerjisinə olan tələbatın ödənilməsinə, rayonların elektrik təchizatının yaxşılaşdırılmasına, elektrik şəbəkələrində yüklənmələrin azaldımasına, şəbəkələrdəki texniki itkilərin minimuma çatdırılmasına imkan yaradacaq. Ölkə ərazisində "Azərişıq" ASC-yə məxsus, yeni təhvil alınan 74 ədəd 110 kV-luq yarımstansiyalardan 12 faizi (9 ədəd), 406 ədəd 35 kV-luq yarımstansiyalardan isə 5 faizi (20 ədəd), ümumi uzunluğu 105 min km təşkil edən 35;10;6 və 0,4 Kv-luq elektrik veriliş xətlərinin 10 faizi (10 min km) yenidən qurulub. Bu istiqamətdə işlərin görülməsi və həyata keçirilməsi "Azərişıq" ASC-nin qarşısında dayanan əsas vəzifələrdəndir. Yeni uğurlar və yeni nailiyyətlər əhalinin keyfiyyətli və davamlı elektrik enerjisi ilə təminatı deməkdir. Əhalinin razı qalması isə, o deməkdir ki, görülən işlər, çəkilən zəhmət əbəs olmayıb.

RƏFİQƏ KAMALQIZI

***Yazı "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün***

# Orduxan Teymurxan və Vidadi İsgəndərli normal insana oxşamırlar





***Son vaxtlar xarici maraqlı dairələrdən maddi və mənəvi dəstək alan "sapı özümdən olan baltalar" ölkəmiz haqqında şər və böhtanlarını daha qərəzli formada genişləndiriblər.***

Bu da onların xarici ağalarından xüsusi göstəriş aldıqlarını göstərir. Bu, həm də, onu təsdiqləyir ki, xarici bossları onlardan narazıdırlar. Yaramaz mövqe sərgiləyən Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Qurban Məmmədov və digərləri ağına-bozuna baxmadan, şər-şəbədələrini genişləndirməklə öhdəliklərini yerinə yetirmək üçün tələsdiklərini nümayiş etdirirlər. Söhbət etdiyimiz müsahiblərimiz də Avropadakı mühacirlərin xüsusi agentura şəbəkəsinin təlimatı əsasında fəaliyyətlərini qurduqlarını bildirdilər.

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli: "Teymurxan kimilər müəyyən xarici kəşfiyyat orqanlarına bağlıdırlar"**

- Teymurxan kimilər müəyyən xarici kəşfiyyat orqanlarına bağlıdırlar. Azərbaycanı istəməyən dairələr tərəfindən idarə edilirlər. Yəni məqsədyönlü iş aparırlar. Onların keçmişinə baxanda, yaramaz və satqın xislətə malik şəxslər olduqlarını bir daha görmək olur. Azərbaycan dövlətinin əldə etdiyi uğurları gözü götürməyən xarici dairələr, məhz əxlaqı, mənliyi, qüruru və şərəfi olmayan adamlardan öz maraqları üçün istifadə edirlər. Bir insan öz ölkəsini və vətənini satırsa, o zaman ondan nə desən çıxar. Bunlar xarici kəşfiyyat orqanlarından asılıdır. Həm maddi asılılığı var, həm başqa metodlarla bunları özlərindən asılı ediblər. Deməli olar ki, həmin şəxslərin işləri, ancaq küçələri gəzə-gəzə danışmaqdır. Deməli, bunların "ağaları" idarə edir. Yəni bunları maddi asılılıq ölkəmizə və xalqımıza qarşı erməni maraqlarından çıxış etməyə məcbur edib. Bu da, qəbuledilməzdir. Həmin şəxslər gec-tez törətdikləri bütün əməllərinə görə cavab verəcəklər. Azərbaycan hakimiyyəti Azərbaycanın milli maraqlarına uyğun siyasət aparır. Bu siyasət dəyişməzdir. Xaricdəki mühacirlər isə hər məqamda ifşa olunurlar və heç zaman məkrli niyyətlərinə nail ola bilməyəcəklər.

**Azərbaycanda Regional İnkişaf Mərkəzinin sədri Çingiz İsmayılov: "Normal adam belə addım atmaz "**

- Hər bir ölkənin öz vətənini sevən övladları da var, axmaqları da. Hansı ki, həmin axmaqlardan olan Orduxan Teymurxan, Qurban Məmmədov, Vidadi İsgəndərli və digərləri öz maraqlarının qurbanı olaraq sifarişlər əsasında dövlətimiz, vətənimiz haqqında şər-böhtan xarakterli xoşagəlməz fikirlər səsləndirirlər. Təbii ki, belə insanlar normal adam deyillər. Çünki normal adam belə addım atmaz. Əgər sən nədənsə uğura, istəyə nail olmamısansa, o demək deyil ki, dövlət, ölkə və Vətən haqqında bu cür anormal fikirlər səsləndirməlisən. Hər nə səbəbə istədiyinə nail olmadığını özündə axtarmalıdır. Kim isə onun xətrinə dəyibsə və o da bunun üçün ölkəni, Vətəni qaralamaq yolu tutubsa, bu, normal adamın işi deyil. Deməli olar ki, belə insanların, sadəcə, anlayışları yoxdur. Bu baxımdan da, belə insanlar normal adam hesab edilə bilməzlər. Ümumiyyətlə, nə olursa-olsun, heç vaxt heç kim öz dövləti haqqında belə xoşagəlməz fikirlər səsləndirməməlidir.

**GÜLYANƏ**

# Xəyanətkarlar bu dəfə Praqada yığışdı

## Yaxud mərhum Vatsav Havel bilsəydi ki...



***Bəlli olduğu kimi, oktyabrın 8-10-da Praqada "Forum-2000" konfransı keçirilib. Konfransda da, öncəkilərdə olduğu kimi, "demokratiya naminə" pərdəsi altında, əsasən, Azərbaycan əleyhinə fəaliyyət göstərən bir sıra xarici təşkilatlar iştirak edib.***

Təkcə, ABŞ-ın "Demokratiyaya Milli Dəstək Fondu"nun prezidenti Karl Geşmanın orada olması ilə yanaşı, həmin konfrasdan "canlı yayıma" qoşularaq, dərhal Azərbaycan əleyhinə kampaniyaya başlaması özü-özlüyündə hər şeyi tam çılpaqlığı ilə sübuta yetirir. Əbəs deyil ki, orada "Sülh və Demokratiya İnstitutu"nun ("SDİ"- R.N.) ermənipərəst direktoru Leyla Yunus, Avropada "siyasi mühacir" adı altında qaranlıq qüvvələrə agentlik edən Orduxan Teymurxan, "Meydan" TV adlandırılan və saytında işğal olunmuş Dağlıq Qarabağ ərazilərinin xəritəsini "DQR" kimi göstərən, "qondarma erməni soyqırımı" ifadəsini dırnaq arasına almayan qurumun rəhbəri Emin Milli, həmçinin, ermənilərin "Aqos" qəzetində uzunmüddətli əməkdaşlıq etmiş Arzu Qeybulla və başqa xainlər dəstəsi misal üçün "REAL" təmsilçiləri Natiq Cəfərli və Erkin Qədirli iştirak ediblər.

**Azərbaycanı Suriya ilə səhv salan Leyla Yunusun siyasi həyasızlığı!**

Xüsusilə, "SDİ"-nin direktoru L.Yunusun saxta forumda aparıcı iştirakçılar arasında yer alaraq, növbəti dəfə Azərbaycan dövləti əleyhinə çıxışlar etməsi də, belə qənaətə gəlməyə zəmin yaradır ki, ümumiyyətlə, onların məqsədləri heç də bu forumun yaradıcısı, mərhum Vatslav Havelin vaxtilə təbliğatını apardığı gerçək demokratiya dəyərlərinə, ümumiyyətlə, cavab vermir. Çünki həqiqi demokratiya ilə dövlətinin, xalqının əleyhinə iş aparmaq, onun maraqlarını düşmən qüvvələrin maliyyəsi ilə fəaliyyət göstərən qurumlara satmaqla real demokratiya tamamilə fərqli məsələlərdir. Məsələn, "SDİ"-nin ermənipərəst rəhbəri, hətta bir az da irəliyə gedərək, bu gün Azərbaycanın dünya miqyasındakı inkişaf və tərəqqisinə, ölkəmizdə, demək olar ki, bütün sahələr üzrə nəhəng beynəlxalq siyasi, iqtisadi, mədəni, idman və s. tədbirlərin keçirilməsinə, Azərbaycanın təhlükəsiz ölkə olmasına qarşı anti-təbliğat aparıb, hətta aşırı siyasi həyasızlığa yol verməklə, ölkəmizi Suriyaya bənzətməyə belə cəhd göstərib. Bu isə, həqiqətən də, heç bir məntiqə və normal düşüncəyə malik ola biləcək düşüncə təsiri deyil.

Ümumiyyətlə, bu cür tədbirlərdə biz, daha öncələr də, bənzər halların şahidlərinə çevrilmişik. Misal üçün, Xədicə İsmayılın beynəlxalq tədbirdə azərbaycanlıların ən ağrılı yeri olan Dağlıq Qarabağ problemi ətrafında söz alan təmsilçimiz danışarkən, o, məhz L.Yunusun şəkli olan köynəyi ilə birgə digər erməniperəst avropalı həmkarları ilə arxasını zala doğru çevirdi. Məhz bu faktın özü də, belə deməyə əsas verir ki, belələrinin maraqları birbaşa düşmən dəyirmanına su tökməklə kirli qrantlar əldə etməkdən ibarətdir.

**Orduxan Teymurxan Emin Milliyə sarsaq, bir müsahibə verməklə kifayətlənməli olub**

Yeri gəlmişkən, Emin Millinin "maliyyə vəsaitlərinin çatışmazlığı" səbəbindən "Meydan" TV-ni başqalarına dövr etmək planları da, nədənsə "təxirə" düşüb və o, anidən dərhal Praqada peyda olub. Halbuki onun barəsində əldə edilən xəbərlərdən biri də ABŞ-a köçmək planlarıdır. Hətta bununla bağlı o, bir neçə nəfərə, o cümlədən, ermənilərin "Aqos" qəzetində işləmiş Arzu Qeybullaya da TV-yə rəhbərlik etməyi təklif edib. Ancaq Arzu Qeybulla ermənilərə işləyən "Meydan" TV-dənsə, birbaşa ermənilərə məxsus olan "Aqos"la əməkdaşlığını davam etdirməyi üstün tutub.

Beləliklə, Praqadakı "Forum-2000" konfransı, necə deyərlər, son vaxtlar maliyyə qıtlığından "erməni məzlumluğu" edib, ağlayan, baş-gözlərinə döyüb, qrant dilənçilərnə çevrilənlər üçün, həqiqətən də, göydəndüşmə oldu. İndi həmin qrantlar hesabına yenidən Azərbaycan dövlətinə qarşı hay-küylər baş qaldıracaq və o zamana qədər ki, növbəti bənzər tədbir digər Avropa ölkələrinin birində keçirilsin...

**Rövşən NURƏDDİNOĞLU**

# AppLab iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar keçirilib



***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell özünün AppLab inkubasiya proqramının iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar təşkil edib.***

"Gələcəyin texnologiyası: blokçeyn və blokçeyn startapının yaradılması" adlı seminarda yerli startapçılara blokçeyn texnologiyasının iş prinsipləri və onun müxtəlif layihələrə inteqrasiya edilməsi imkanları barədə geniş məlumat verilib.

"Blokçeyn texnologiyası yeni yarananda startapçılar bu yeniliyin hansı sahələrdə tətbiq oluna biləcəyini tam şəkildə başa düşmürdülər. Lakin bu gün blokçeyn üzərində qurulmuş startaplara daha tez-tez rast gəlinir. Biznes sahibi olan gənc startapçılar onun imkanlarını öynənməlidirlər. Çünki bu texnologiya sayəsində xeyli gəlir əldə etmək mümkündür. Blokçeyn artıq gələcəyin əlçatan texnologiyasıdır və biz onu öyrənib real həyatda tətbiq etməyə bacarmalıyıq", deyə AppLab proqramının məzunu, müxtəlif uğurlu layihələrin müəllifi, WAVES platformasının səfiri və Blokçeyn üzrə təlimçi Orxan Əhmədov bildirib.

AppLab proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. İştirakçılar müvafiq təlimlərlə yanaşı, şirkətin AppLab Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. AppLab Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

İnnovasiya sahəsində lider olan Bakcell gənc nəslin nümayəndələrinə onların inkişafı və innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan şəraitin yaradılması və məsləhətlər ilə dəstək göstərməyə həmişə hazırdır.

# "Nar" gənclərə uğurlu karyera qurmaları üçün fürsət yaratdı



"Nar" Baku City Circuit (BCC) Akademiyası və Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham") birgə təşkil etdiyi karyera sərgisində iştirak edib. "Geniş imkanlara kiçik addımlarla" devizi altında keçirilən sərgidə mobil operator məhsullarının inkişafı, kommersiya hasabatları, qrafik dizayneri, regional satış və digər vakant vəzifələrə sənəd qəbulu təşkil edib. 40-a yaxın şirkətin də iştirak etdiyi sərgidə "Nar" stendinə maraq böyük olub. Stend ziyarətçiləri "Nar"-ın yay təcrübə proqramlarında iştirak barədə məlumat əldə etdilər. Oktyabrın 5-də keçirilmiş sərgini 900-dən çox insan ziyarət edib.

Xatırladaq edək ki, daha öncə ADA universitetində keçirilmiş tələbələr üçün əmək yarmarkasında "Nar" operatoru "Ən yaxşı işəgötürən şirkət" mükafatına layiq görülüb.

Mobil operatorun həyata keçirdiyi layihələr haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azərbaycanda qadın hüquqları uğrunda hərəkat (XIX-XX əsrlər)

***Görkəmli ensiklopedist-alim, Şərq xalqlarının mədəniyyətinin və tarixinin mahir bilicisi, Rusiyada şərqşünaslıq elminin təşkilatçılarından biri, "rus şərqşünaslığının patriarxı" adını almış Mirzə Kazımbəy bütün dünya şərqşünaslarının rəğbətini qazanmışdır. Əlli illik elmi fəaliyyətinin bəhrəsi olan əsərləri ilə o, görkəmli tarixçi, filoloq, hüquqşünas və filosof kimi tanınmışdır.***

Professor A.Q.Rzayev öz tədqiqatında yazır: "ABŞ, Hollandiya, Almaniya, Fransa, Böyük Britaniya və Rusiya elmi cəmiyyətlərinin və akademiyalarının üzvü olan Mirzə Kazımbəy tarix, fəlsəfə, siyasət, hüquq, Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatını tədqiq edən tanınmış alim, islamın və müsəlman hüququnun mahir bilicisi kimi şöhrət qazanmışdır".

Görkəmli-azərbaycanlı alimin irsi çoxşaxəli və zəngindir. Mirzə Kazımbəyin əsərlərinin əsas hissəsi Azərbaycan dilinin problemlərinin öyrənilməsinə həsr olunub. XX əsrin tanınmış filosof-alimi Heydər Hüseynov onun bu sahədəki fəaliyyətini bu cür xarakterizə edir: "Mirzə Kazımbəy, hələ yüz il əvvəl, Azərbaycan dilinin qrammatikasının əsas elmi prinsiplərini hazırlamışdır. Qeyd etmək lazımdır ki, o, həm də ilk dəfə olaraq, "Azərbaycan dili" terminini elmi cəhətdən əsaslandırmış və istifadə etmişdir. Belə ki, o, "Azerbidcan" yazırdı". Bu tədqiqatları haqqında M.Kazımbəy özü belə qeyd edirdi: "İlk olaraq, bu predmet haqqında belə geniş yazılar yazdığıma görə çox xoşbəxtəm. Mən indi rus şərqşünaslığı üçün, asudə vaxtların imkan verdiyi qədər hər şeyi etmişəm".

Fəlsəfə elmləri doktoru Lalə Mövsümova yazır: "M.Kazımbəyin çoxşaxəli elmi irsində ədəbiyyat və estetika ilə tədqiqatlar mühüm yer tutur. Bu əsərlərində alim öz dövrünün bir çox mütərəqqi ideyalarının daşıyıcısı kimi çıxış etmişdir". O öz məqalələrində mifologiyanın köklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, mifologiyanın ibtidai insanın təfəkkürünə, həmçinin, tarixin ədəbiyyat və incəsənətin formalaşmasına göstərdiyi təsirdən bəhs edir. O yazır: "Əfsanə və əsatirlər" xalqların həyatında və tarixində heç də axırıncı yer tutmurlar. Çoxdan baş vermiş hadisələr haqqındakı hekayə və povestlərdən, ayrı-ayrı fakt və hadisə ünsürləri şəklində onların tarixi məlumatlarını təşkil edir. Tarix bir çox hallarda bu hekayə və povestlərdən bəşər həyatının qaranlıq, müəmmalı dövrələrinə aydınlıq gətirmək məqsədilə istifadə edir. Ədəbiyyat zəngin bir xəzinə kimi onlardan özünü zinətləndirmək üçün qiymətli incilər seçir.

Əfsanəsiz xalq yoxdur; köçəri xalqlarda onlar şifahi hekayələr şəklində nəsildən-nəslə ötürülür. Yarımmədəni xalqlarda əfsanə və əsatirlər bu xalqların inamlarının əsasını, yazılı abidələrin, ədəbiyyat və tarixlərinin əsas məzmununu təşkil edir. Maariflənmiş xalqlarda əfsanə və əsatirlər onların təxəyyülü üçün zəngin qidaya və müqəddəs güvənc yerinə çevrilir".

M.Kazımbəyin yaradıcılığında etika məsələləri də mühüm yer tutur. İlk öncə, diqqəti cəlb edən alimin əxlaqın mənşəyi ilə bağlı fikirləridir. Onun fikrincə, insanların əxlaqla bağlı görüşləri, dini görüşlərdə olduğu kimi, onların yaşadıqları şəraitdən qaynaqlanır. "Ərəbistanda və onun hüdudlarından kənarda Məhəmmədin fəaliyyəti üçün zəmin yaratmış Şərqdə baş verən bəzi siyasi çevrilişlər haqqında" əsərində Mirzə Kazımbəy Ərəbistanda həm siyasi, həm də mənəvi cəhətdən bu dəyişikliklərin labüdlüyünü ehtiva edən bütün səbəbləri şərh etməyə çalışmışdır. O, təbiətdə hər şeyi təsadüflə əlaqələndirənlərin fikirlərini inkar edərək, həm fiziki, həm də mənəvi aləmdə baş verənlərin müəyyən qanunauyğunluğa tabe olduğunu qeyd edirdi".

L.Mövsümova qeyd edir ki, M.Kazımbəy etika məsələlərinə yanaşmada heç də birmənalı mövqe nümayiş etdirməmişdir, onun fikirləri çox ziddiyyətli idi. Bir tərəfdən, o, əminliklə əxlaqın dəyişkənliyini, onun insanların həyat tələbatlarından asılı olduğunu sübut edirdisə, digər tərəfdən, mənəviyyatın dərk olunmadığını qeyd edirdi. Lakin M.Kazımbəyin əsərlərinin müfəssəl təhlili, əsasən də, onun "Dünyanın "qəbahətsiz" həzzləri haqqında və onların əsl xoşbəxtliyin əldə olunmasına təsiri" etik traktatı sübut edir ki, o, əxlaqın dəyişkənliyinə və dərk olunan olduğuna inanır. Həmin traktatında müəllif əxlaqın mahiyyətini açmağa çalışır. Bu əsnada M.Kazımbəyin etik dünyagörüşünü tədqiq edən Z.Göyüşovun "Əgər xristian həqiqətləri və "Allahın aqilliyi" ilə bağlı lüzumsuz dini fikirlərini atsaq, onda, əlbəttə ki, bu əsər, bizə M.Kazımbəyi Azərbaycanda etikanın ilk nəzəriyyəçisi hesab etməyə imkan verir" kimi fikri ilə razılaşmaq olmaz.

M.Kazımbəyin fəlsəfi görüşlərini dərindən dərk etmək üçün onun milli-azadlıq hərəkatında dinin rolu, inqilaba münasibəti, şəxsiyyətin xalq hərəkatında rolu ilə bağlı fikirlərinə xüsusi diqqət yetirmək lazımdır.

M.Kazımbəy dinin müsəlman dövlətlərinin sosial-siyasi strukturundakı rolunu və yerini müəyyən etməyə çalışır. O, hesab edirdi ki, din siyasiləşdirilir, siyasət isə dini pərdə arxasında gizlənir. İslamın ideoloji roluna böyük əhəmiyyət verir, onun müsəlman xalqlarını despotizmə, ədalətsizliyə, zülm və əsarətə qarşı mübarizəyə ruhlandıra biləcək mənəvi-siyasi nəzəriyyə kimi qiymətləndirir. O, islamın dini-fəlsəfi təlim olmadığını, həm də sosial-siyasi və hüquqi funksiyalar daşıdığını qeyd edir. İslamın Şərq xalqlarının həyatındakı əhəmiyyətli rolunu bu səbəblə bağlayırdı. İslamın yaranmasını "Məhəmmədin təliminə başlanğıc verən, ərəb məişətinin dini, mənəvi və siyasi vəziyyəti ilə" əlaqələndirirdi.

M.Kazımbəyin müsəlman hüququnun problemlərinin tədqiq edilməsində, müsəlman hüququnun mənbələrinin öyrənilməsində xidmətləri böyükdür. O Rusiyada müsəlman hüququnun öyrənilməsinin əsasını qoymuş, ilk dəfə olaraq ilk mənbələri rus dilinə tərcümə etmiş, izahatlar yazmış və bu mühüm əsərləri nəşr etdirmişdir.

M.Kazımbəyin elmi yaradıcılığında Şamilin başçılığı altında dağlıların apardıqları milli-azadlıq hərəkatının təsvirində az yer ayrılmır. Öz dövrünün mütərəqqi alimi və mütəfəkkiri olan M.Kazımbəy Şamil hərəkatını tədqiq edərək yazır: "Şamilin adında bir çox tarixi və vətənpərvərlik fikirləri gizlənilib. O qəhrəmandır və qəhrəmanların yaradıcısıdır". Şamilin hələ uzun müddət anaxronizm sayılmayacağı haqda fikir ona məxsusdur.

Dağlıların çar mütləqiyyətinə qarşı olan hərəkatının uğurunu M.Kazımbəy hərəkatda yalnız mənəvi lider olmayıb, həm də dünyəvi hakimiyyəti öz əlində saxlayan Şamilin şəxsiyyəti ilə bağlayırdı. "Şamil çox maraqlı və qeyri-adi bir insandır, o, eyni zamanda, dahi sərkərdə, qəhrəman, həm də imamdır". "Bu, həm məftun edən, həm də əmr edən açıq fikir və sağlam düşüncədir. Məhz bu xüsusiyyətləri sayəsində öz hakimiyyəti altında bütün Dağıstanı birləşdirməyi, fəth etməyi bacardı". O, Şamili "özünəməxsus müdrik bir insan və qəhrəman" kimi xarakterizə edir.

M.Kazımbəyin yaradıcılığında sosial-fəlsəfi məsələlər də xüsusi yer tutur. Alimin bu sahəyə aid olan işlərində 1865-ci ildə Sankt-Peterburqda nəşr olunmuş "Bab və babilər: 1844-1852-ci illərdə İranda dini-siyasi iğtişaşlar" əsərini misal göstərmək olar. Bu tədqiqatı ilə müəllif cəhalətə, fanatizmə, mövhumata qarşı çıxır. M.Kazımbəy tərəfindən verilmiş babilik hərəkatının hərtərəfli təhlili, babizmin məzlum kütlələrin o vaxt mövcud olduğu feodal quruluşuna qarşı etiraz kimi xarakterizə edilməsi maraq doğurur. Babilər təlimi islama qarşı bir etiraz idi. Bu təlimdə, əsasən, dövlət strukturunda islahatların zərurətindən, insan şəxsiyyətinin siyasi azadlığından bəhs edilirdi.

Mirzə Kazımbəy "Ərəb dilinin qrammatikasının təcrübələri" (ərəb dilində) adlı ilk elmi işini yazmışdır. Bir ildən sonra 1820-ci ildə "Müəmma və Loğaz" adlı əsərində Mirzə Kazımbəy ərəb və fars dillərində olan sözlərin özünəməxsus nümunələrini seçib təhlil etmişdir. Ümumilikdə, professor Mirzə Kazımbəy "İslam tarixi", "İmamın, onun hakimiyyətinin və şərəfinin hakimiyyəti haqqında", "Məhəmməd Əmin", "Bab və babilər: 1844-1852-ci illərdə İranda dini-siyasi iğtişaşlar", "Firdovsi əsərləri üzrə fars mifologiyası", "Risalə-xristian dininin həqiqətləri haqqında traktat", "Əssəbüs Səyyar və ya yeddi planet: Krım xanlıqlarının tarixi" və s. kimi Azərbaycan fəlsəfəsinin qızıl fondunda layiqli yer tutan və bu gün də öz elmi əhəmiyyətini itirməyən 110-dan çox elmi əsərlərin müəllifidir.

Azərbaycanda qadın hərəkatı, yuxarıda bəhs etdiyimiz kimi, dindarların maarifləndirilməsi uğrunda mübarizə ilə başlayaraq, 1905-1907-ci il inqilabından sonra genişləndi. Başda "molla nəsrəddinçilər" olmaqla, tərəqqipərvər ictimaiyyət qadınların hüquq bərabərliyi və təhsili uğrunda mübarizə aparırdı. "İşaq" adlı ilk qadın jurnalı (1911-1912-ci il) bu sahədə böyük işlər görmüşdür.

1904-1905-ci illərdə "Hümmət" kimi bəzi siyasi qruplar qadın probleminə aid "qadınlar üçün analıq məzuniyyəti, südəmər uşaqları olan analar üçün iş vaxtının azaldılması, neftçi qadınlar üçün tibbi yardım" kimi spesifik tələblər irəli sürürdülər.

D.Seyidzadə yazır: "1905-1907-ci illər inqilabı zamanı Bakıda, 1912-1914-cü illərdə Bakıda, Gəncədə, Şəkidə keçirilən tətillərdə qadınlar da iştirak edirdilər, o cümlədən, İran Azərbaycanında qadınlar inqilabi hərəkatda iştirak edirdilər. 1907-1909-cu illərdə Səttərxan hərəkatında qadınlar az deyildilər, belə ki, Təbrizin müdafiəsində 100-dən artıq döyüşçü qadın həlak olmuşdu".

1907-ci il 6 mart tarixində Bakı şəhər Dumasında A.Ağayev demişdi: "Bütün dünya, bütün Rusiya özünün malik olduğu hüquqlar uğrunda mübarizə aparır, müsəlmanlar da bütün məhdudiyyətlərin həmişəlik aradan götürülməsini tələb etməlidirlər". Dövrün siyasi-ictimai xarakteristikasını verən alim D.Seyidzadə, 1907-ci il 8 mart tarixli "Kaspi" qəzetinə istinadən yazır: "Müsəlman fraksiyasında qadınların bərabərhüquqluluğu haqqında da X.Xasməmmədov tərəfindən məsələ qaldırılmışdı. Bu məsələ ilə bağlı müzakirələr irəli sürülürdü ki, düşüncəsiz kütlənin əsrlər boyu formalaşmış həyat tərzinə zidd məsələnin həlli, bu kütləni fraksiyadan uzaqlaşdıracaq və onlar "ordusuz general" rolunu oynayacaqlar". D.Seyidzadə 1907-ci il 28 mart tarixli "Proqress" qəzetindən fakt gətirir ki, "mollalar şurası və müxtəlif mərhələli dini təşkilatlarla çoxsaylı məsləhətləşmə və razılaşdırılmalardan sonra, fraksiya aşağıdakı nəticələrə gəldi - qadınlara seçmək hüququ verilsin, lakin seçkiqabağı yığıncaqlar ayrı-ayrı keçirilsin".

Müstəmləkə siyasətinin feodal-patriarxal quruluşu buxovlarından (kapitalizm, əsasən, Bakı neft sənayesində inkişaf edirdi) və əksər əhalinin nadanlıq və savadsızlığından xilas olmağa çalışan Azərbaycan, onun müxtəlif partiyalara mənsub ziyalıları və xalqın siyasi cəhətdən savadlı liderləri də təşkilatlanmış, daxili və xarici siyasətin imkanlarından, xüsusən, burjua-demokratik və proletar inqilablarına hazırlaşan çar Rusiyası ilə əlaqədən istifadə edərək sosial dəyişmələrə, inqilablara, əvvəlcə demokratik, sonra isə sosialist quruculuğu yoluna qədəm qoyurlar.

1914-cü ildə Bakının Sabunçu qəsəbəsində 300 nəfərdək fəhlə qadının nümayişi, Balaxanı, Ramana, Razin qəsəbələrində isə tətil və mitinqlər keçirilmişdir. 1917-ci ildə bolşevik "Hümmət" təşkilatının qadın şöbəsi yaradıldı. Bir məqama diqqətə yetirək ki, Beynəlxalq 8 Mart Qadınlar Günü Rusiyada 1913, Azərbaycanda isə 1917-ci ildə qeyd edilmişdir (dünyada isə ilk dəfə 1911-ci ildə qeyd olunub R.M).

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Ev şəraitində dişlərin təmizlənməsinin bir neçə üsulu var

Dişlərə düzgün qulluq onların sağlamlığı və gözəl görünüşü üçün əsas şərtdir. Dişləri hər gün səhər və axşam yeməyindən sonra, yatmazdan əvvəl təmizləmək lazımdır.

Respublika Stomatoloji Mərkəzin həkim-stomatoloqu Fidan Aslanlı dişlərin ağardılması barədə deyib: "Mütəmadi olaraq hər gün 3-5 dəqiqə ərzində dişlərin xarici, daxili və çeynəmə səthi fırçalanmalıdır. Bunun üçün təxminən 10 dəqiqə ərzində fırça diş boyu vertikal istiqamətdə, ən az 400 dəfə hərəkət etdirilməlidir. Axşam dişləri təmizlədikdən sonra isə diş ətini 5-7 dəqiqə ərzində masaj etmək məsləhət görülür. Ağız boşluğu və diş ətinin iltihabi xəstəlikləri olduqda masaj etmək düzgün deyil".

Həkim ev şəraitində dişlərin təmizlənməsinin bir neçə üsulu barədə məlumat verib: "Dişlərin ağardılması üçün ağcaqayın ağacının quru oduncağı ocaqda yandırılır və onun külü ilə dişlər təmizlənir. Bir ay ərzində həftədə iki dəfə zeytun yağı, soda və limon suyunun qarışığı ilə də dişləri ağartmaq olar. Onu da qeyd etmək lazımdır ki, bu prosedurun tez- tez təkrarlanması diş emalını zədələyə bilər.

Diş məcununa əlavə edilən bir damcı limonun efir yağı dişlərin bəyazlığı ilə yanaşı ağızdan gözəl qoxu gəlməsinə də səbəb olur.

Möhkəm və çiy tərəvəzlər diş minasına zərər vermədən təmizləyici və ləkəçıxarıcı kimi istifadə edilir. Təzə alma, yerkökü, kərəviz, paxla və s. meyvə və tərəvəzlərin tərkibindəki sellüloz bakteriyaları aradan qaldıran təbii aşındırıcı lifdir. Bundan başqa 1 stəkan suda 1 ədəd hidrogen-peroksid həbi həll edilir və ağız onunla yaxalanır. Həmin proseduru hər gün təkrarlamaq lazımdır. Bir neçə ədəd aktivləşdirilmiş kömürün həbi əzilir, alınan tozla dişlər təmizlənir. Tam bəyaz olmasa da, dişlərin rəngi xeyli açılır.

Dil üzərində ağ ərp olduqda isə onu xüsusi diş fırçası ilə təmizləmək lazımdır". Damagların mohkəmliyi uçun C vitamini ilə zəngin olan çiyələk və limondan istifadə etməyi məsləhət görən həkim-stomatoloq həmin üsulların həkim təyinatı ilə aparılmasını daha məqsədəuyğun hesab edir. Belə ki, tətbiq olunan hissənin hidrogen-peroksidə, yağ və ya kömürə necə reaksiya verəcəyi məlum deyil və onlar diş emalını zədələyə bilər.

## "Google+" sosial şəbəkəsinin fəaliyyəti fərdi istifadəçilər üçün dayandırılacaq

"Google" şirkəti "Google+" sosial şəbəkəsinin fəaliyyətini 10 ay müddətinə fərdi istifadəçilər üçün dayandıracaq. Bu barədə şirkətin rəsmi bloqunda deyilir. AZƏRTAC-ın "RİA Novosti"yə istinadla verdiyi xəbərə görə, məlumatda qeyd olunur ki, sosial şəbəkənin dəstəklənməsi ilə əlaqədar çətinliklər və "Google+" şəbəkəsinin istifadəçi versiyasının populyarlığının az olması nəzərə alınaraq, onun fəaliyyətinin dayandırılması ilə bağlı qərar qəbul edilib. "İstifadəçilər məlumatların saxlanılması və köçürülməsi üzrə təlimatlarla təmin ediləcək", - deyə məlumatda bildirilir.

Həmçinin qeyd olunur ki, servisin istifadəçilər arasında populyarlığı aşağı olub - istifadəçilərin 90 faizi şəbəkədə təxminən 5 saniyə vaxt keçirib. Bundan əlavə, şirkət "Google+"da 500 min istifadəçinin hesab məlumatlarına şamil edilən boşluq barədə məlumat verib. Sosial şəbəkənin proqram təminatında nasazlıq kənar tərtibatçılara 2015-ci ildən 2018-ci ilin martınadək istifadəçi profillərinin məlumatlarına çıxış imkanı yaradıb. Səhv daxili təhqiqat nəticəsində aşkarlanaraq aradan qaldırılıb. Proqram təminatının işindəki nasazlıqdan 438 əlavənin istifadə etdiyi ehtimal olunur, lakin əlavələrdən azı birinin ondan istifadə etməsi və ya tərtibatçıların onun haqqında məlumatlı olmaları barədə sübutlar yoxdur.

**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial-xidmət ixtisası üzrə II kurs tələbəsi Əliyeva Günay Ramiz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə II kurs tələbəsi İsmayıllı Ruhəngiz Sahib qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici ixtisası üzrə I kurs tələbəsi Seyidli Sona Gülağa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Yasamal rayonu Qədirli küçəsi ev 77-də yaşayan 15 yanvar 1948-ci il təvəllüdlü Məlikov Nağı Xalıx oğlunun adına verilmiş Bakı şəhər bələdiyyələşdirilmiş tikililərin reyestrindən 170-80-7310 saylı ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

## Həbib Nurməhəmmədov reytinqdə 2-ci pilləyə yüksəlib



Rusiyalı Həbib Nurməhəmmədov qaydasız döyüş çempionatının (UFC) reytinqində 8-ci yerdən 2-ci pilləyə yüksəlib. SİA-nın məlumatına görə, 30 yaşlı döyüşçü buna ABŞ-ın Las-Veqas şəhərində keçirilən UFC 229 turnirində yüngül çəkidə irlandiyalı Konor Makqreqor üzərində qələbə qazanaraq, çempion titulunu qoruması sayəsində nail olub. Makqreqor isə 2-ci sıradan 8-ci yerə enib. Qeyd edək ki, reytinqdə ilk sırada amerikalı Deniel Kormye qərarlaşıb.

## "Buenos-Ayres-2018"də Rusiya medal sıralamasında liderdir

Buenos Aires 2018 — Juegos Olímpicos de la Juventud — Viví el futuro

Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunları davam edir. SİA-nın məlumatına görə, ikinci yarış günündən sonra Azərbaycan 1 qızıl medalla ölkələrin sıralamasında 16-cı pillədə qərarlaşıb. Azərbaycana ilk medalı Olimpiadada 66 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçumuz Vüqar Talıbov qazandırıb.

Rusiya millisi 11 qızıl, 1 gümüş və 1 bürünc medalla birinci pillədə yer alıb. Hesabında 5 qızıl medal olan Macarıstan ikinci pillədədir. Venesuela (2-1-2) üçüncü, Yaponiya (2-0-3) dördüncü, Çin (2-0-2) isə beşincidir. Ümumilikdə 51 ölkə "Buenos-Ayres-2018"də medalçılar sırasında yer alıb.

## Messi "Barselona" azarkeşinin belinə avtoqraf yazıb



İspaniyanın "Barselona" klubunun futbolçusu Lionel Messi komandanın azarkeşinin belinə avtoqraf edib. "Report" xəbər verir ki, azarkeş Messinin fotosunu kürəyinə çəkdirdiyini ona göstərərək avtoqraf istəyib. 31 yaşlı argentinalı hücümçu özünün döyməli təsvirinin üzərinə imzasını atıb. Daha sonra o, azarkeşlə şəkil çəkdirib.

## Maltanın baş məşqçisi millimiz haqda - "Bizi çətin oyun gözləyir"



"Gördüyünüz kimi, UEFA Millətlər Liqasının son iki oyununda heyətdə olan futbolçuların böyük əksəriyyətini saxlamışıq. Daxili yarışlarda çıxış edən oyunçularımızın vəziyyətini diqqətlə izləyib, seçimimizi də buna uyğun etmişik".

Qol.az-ın "independent.com.mt" saytına istinadən yaydığı xəbərə görə, bu sözləri Malta millisinin baş məşqçisi Rey Farruciya deyib. UEFA Millətlər Liqasında Kosovo və Azərbaycanla keçiriləcək oyunlara hazırlığı dəyərləndirən təcrübəli mütəxəssis məşq prosesindən razı qaldığını bildirib:

"Bizi qarşıda 2 çətin oyun gözləyir. Məşqçilər korpusumuz yorulmadan futbolçularımızı həmin qarşılaşmalar üçün ən yaxşı formaya gətirməyə çalışır. Hazırlığın gedişindən çox məmnunam".

Qeyd edək ki, Malta seçməsi oktyabrın 11-də Kosovo, 3 gün sonra isə millimizin qonağı olacaq. Bakı Olimpiya Stadionunda keçiriləcək matç 20:00-da başlayacaq.

## "Barselona"lı futbolçu: "Çox adam belə səhvlər etməyimi gözləyir"



"Barselona"nın müdafiəçisi Jerar Pike "Valensiya" ilə La Liqanın 8-ci turunun oyununda qolla nəticələnən kobud səhvinə münasibət bildirib. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, o deyib: "Bəli, mən çox səhv etmişəm, amma qaydasındayam. Çox adam - yeri gəlmişkən, onlar təkcə Madriddə deyil, Barselonada da var - mənə nifrət edir və belə səhvlər etməyimi gözləyir. Hər dəfə qol buraxanda bəziləri üçün məni ittiham etmək dəb halını alıb. Onları başa düşürəm. Bu, futbolun bir hissəsidir. Qoy, fürsətdən istifadə edib sevinsinlər".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**